QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 015 (6215) 27 yanvar 2021-ci il 2020-ci il. Qiyməti 40 qəpik "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## "Bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir"



Bax 2

*Prezident İlham Əliyev Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

## Hikmət Hacıyev: 1200 erməni hərbi qulluqçusunun cəsədi erməni tərəfinə qaytarılıb

Bax 5



Vaşinqtonda fəaliyyət göstərən ən nüfuzlu "beyin mərkəzləri"ndən biri - "Atlantik Şurası" ("Atlantic Council") Ermənistan-Azərbaycan müharibəsinin yekunlarına və münaqişədən sonrakı dövrdə regional əməkdaşlığın perspektivlərinə həsr edilmiş...

## Ahmet Yıldız: Türkiyə ilə Azərbaycan arasında koordinasiya yüksək səviyyədədir



Bax 4

Ermənistan yaranmış şansdan istifadə etməyi bacarmalıdır. Azərbaycanla dərhal razılığa gəlməli və keçmişdən danışmamalıdır. Rəsmi İrəvan Türkiyə, Azərbaycan və Gürcüstan ilə münasibətlərinə yenidən nəzər salaraq onları inkişaf etdirməlidir. Əvvəllər olduğu kimi, kin və nifrət dolu bəyanatlar Ermənistana kömək etməyəcək. Ermənistan nümayəndə heyəti AŞPA, eləcə də NATO Parlament Assambleyasının...

## Qoar Meloyan: "Erməni diplomatiyası bu dəfə AŞPA-da süqutа uğradı"



Ermənistanın konstitusiya üzrə eksperti Qoar Meloyan erməni deputatlarının AŞPA-dakı uğursuzluqları barədə danışıb. SİA xəbər verir ki, bu barədə news.am saytı Meloyanın AŞPA-nın iclasında "erməni əsirləri" ilə bağlı mövzunun gündəmə salınmaması ilə bağlı feysbuk səhifəsində yazdığı fikirlərini şərh edib. Belə ki, erməni eksperti "əsir" məsələsinin yerinə...

Bax 14

## Müəllimlər vaksinasiya olunacaq?



Müəllimlərin vaksinasiyası ilə bağlı heç bir məcburetmə halı yoxdur. SİA-nın məlumatına görə, Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cəsarət Valehov bildirib ki, ilkin olaraq yaşı 50-dən yuxarı olan müəllimlərin vaksinasiya olunması tövsiyə edilir. Bakı, Abşeron və Sumqayıtda...

Bax 7

## "AŞPA-dakı bəzi qrupların gərginliyi səngiməyib, onlar vəziyyəti qızışdırmağa çalışırlar"



Bu gün burada danışmaq böyük şərəfdir. 20 ildir bu təşkilatda Azərbaycan nümayəndə heyəti ilə ölkəmizi təmsil edirik. 20 il əvvəl Azərbaycan bu təşkilata üzv olanda, böyük ağrıları var idi, torpaqları işğal altında idi. Bu illər ərzində burada ədalətsizliklərlə üzləşmişik, onun şahidi olmuşuq. Bu illər ərzində ərazilərimizlə bağlı ədalətin bərpa edilməsinə çalışmışıq. Həmişə Avropa Şurasına böyük ağrılarla gəlmişik. Bu gün son dərəcə qürurluyam...

Bax 5

### Milyarderlər pandemiyadan sonra gücləndilər, bəs orta və yoxsul təbəqə?



Bax 12

### Qəzetlər media məkanında mövqeyini niyə itirir?



Bax 15

### "Barselona"nın borcu 1,173 milyard avroya çatdı!




Bax 16

# “Bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir”

*Prezident İlham Əliyev Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış edib.**



***İnternet istifadəçilərinin sayı 80 faizdən çoxdur. Hər kəs bilir ki, Azərbaycanda internet azaddır, heç bir senzura, heç bir məhdudiyyət yoxdur***

Prezident İlham Əliyevin çıxışı

-Siz nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri vəzifəsinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Əminəm ki, Siz bu etimadı doğruldacaqsınız.

Rəhbərlik edəcəyiniz sahələrə mən daim böyük diqqət göstərmişəm, bu gün də göstərirəm. Son illərdə bu sahələr uğurla inkişaf edib. Mən Prezident vəzifəsinə seçiləndə həm nəqliyyatda, həm də rabitə sahəsində vəziyyət bizi qane etmirdi. O vaxt yüksək texnologiyalardan, ümumiyyətlə, söhbət getmirdi, yollar bərbad vəziyyətdə idi, dəmir yolları infrastrukturu köhnəlmişdi, dəniz nəqliyyatı sahəsində hər hansı bir irəliləyiş yox idi, əksinə, bizim donanmamız böyük dərəcədə köhnəlmişdi. Bütövlükdə bu sahədə vəziyyət ürəkaçan deyildi. Görülmüş tədbirlər nəticəsində bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir. Bunu həm Azərbaycan vətəndaşları görürlər, eyni zamanda, Azərbaycan beynəlxalq təşkilatların reytinqlərində daim yüksək yerlər tutur. Təkcə Davos Ümumdünya İqtisadi Forumunun hesabatına baxmaq kifayətdir, hər kəs görsün ki, bu sahədə çox ciddi islahatlar aparılır və Azərbaycan reytinqlərə görə dünya miqyasında qabaqcıl yerlərdədir. Avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerləri bölüşürük. Dəmir yollarının səmərəliliyinə görə biz dünyada 11-ci yerdəyik. Hava nəqliyyatının səmərəliliyinə görə dünyada 12-ci yerdəyik. Yəni, bu yüksək yerləri əldə etmək böyük səylər, düşünülmüş siyasət tələb edirdi. Əlbəttə ki, nəqliyyat infrastrukturuna qoyulan vəsait bu yeni vəziyyəti yaratmışdır. Nəqliyyat sahəsinə qoyulmuş vəsait bu gün ölkəmizin iqtisadi, xüsusilə qeyri-neft sektorunun inkişafına da müsbət təsir göstərir. Çünki yol olmayan yerdə inkişaf da olmur. Yol olmayan yerdə fermer öz məhsulunu bazara çatdıra bilmir. Dəmir yolları olmayan yerdə heç bir tranzit imkanından söhbət gedə bilməz. Ona görə biz, ilk növbədə, ölkə daxilində infrastrukturu tamamilə yenidən qurduq. Eyni zamanda, ölkəmiz üçün çox vacib olan və uzunmüddətli inkişaf strategiyamıza uyğun olan tranzit imkanları da yaratmışıq. Son 17 il ərzində 17 min kilometrdən çox avtomobil yolu tikilib, həm magistral yollar, həm kənd yolları, həm də şəhərlərarası yollar. Bu proses bu gün də davam etdirilir. Eyni zamanda, azad edilmiş torpaqlarda da yol infrastrukturunun yaradılmasına bu il start verilmişdir. Biz bu işləri planlı şəkildə görəcəyik. Füzulidən Şuşa şəhərinə açılmış yeni yol onu göstərir ki, biz bu işləri faktiki olaraq ən qısa müddət ərzində görə bilirik.

Ölkə daxilində dəmir yolu nəqliyyatı sahəsində önəmli layihələr icra edildi, dəmir yollarımızın reabilitasiyası layihələri icra olundu. Bakı dairəvi dəmir yolu inşa edildi və bu, sərnişin daşımaları, insanların rahatlığı üçün çox önəmli hadisədir. Müxtəlif şəhərlərdə dəmir yolu vağzalı inşa edildi.

Əlbəttə ki, Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycanın təşəbbüsü ilə inşa edilməsi bölgəmizdə və bütövlükdə Avrasiyada yeni nəqliyyat xəritəsini yaratdı. Bizim tərəfdaşlarımız hazırda bu yoldan istifadə edərək öz məhsullarını müxtəlif istiqamətlərə çatdırırlar. Qeyd etməliyəm ki, Azərbaycan ərazisindən keçən yolların çoxşaxəli olması bizim imkanlarımızı böyük dərəcədə artırır. Pandemiya dövründə bütövlükdə bütün dünyada iqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq, bildirməliyəm ki, Şimal-Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi təxminən 20 faiz artmışdır. Bizim dəmir yolu infrastrukturumuzdan bir çox ölkələr istifadə edir. Hazırda Çin-Qazaxıstan-Xəzər dənizi-Azərbaycan-Avropa marşrutu, eyni zamanda, Əfqanıstan-Türkmənistan-Xəzər dənizi-Azərbaycan-Avropa marşrutu mövcuddur. Bakı-Tbilisi-Qars dəmir yolunu faktiki olaraq Lapis-Lazuli yolu ilə birləşdirdik və əlbəttə ki, burada çoxşaxəli nəqliyyat infrastrukturu öz rolunu oynamışdır. Çünki bizim imkanlarımız genişlənib. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə istismara verilmiş Bakı gəmiqayırma zavodunda bütün növ gəmilər istehsal olunur və biz bu istehsalı hər il artırırıq. Hazırda zavodda tankerlər, Ro-Ro gəmiləri və yük gəmiləri istehsal olunur. Biz bu sahədə xaricdən asılılığı aradan qaldırmışıq, minlərlə iş yeri açmışıq və neft-qaz əməliyyatlarında iştirak edən şirkətlər üçün də imkanlar yaratmışıq. Onlar da öz sifarişlərini bu zavoda verirlər.

Biz Xəzər Gəmiçiliyini müasirləşdirmişik, Xəzərdə ən böyük donanmaya sahibik və hər il donanmaya yeni gəmilər təqdim edilir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizində yükdaşımaların təşkili üçün əvəzolunmaz rol oynayır. Birincisi, biz limanı Bakı şəhərindən çıxardıq. Bu, Bakının ekoloji vəziyyətinə müsbət təsir göstərmişdir, eyni zamanda, yeni istirahət zonası yaradılıb. Əlbəttə ən müasir dəniz ticarət limanının işə düşməsi bizim imkanlarımızı böyük dərəcədə artırıbdır.

Hava nəqliyyatına gəldikdə, təkcə onu demək kifayətdir ki, bu gün bizim təyyarə parkı ən müasir parklardan biridir. Həm yük təyyarələrimiz, həm sərnişin təyyarələrimiz müasirdir, dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Bakıdakı Heydər Əliyev Beynəlxalq Hava Limanı beşulduzlu hava limanıdır və dünyada belə hava limanlarının sayı 10-a yaxındır. MDB-də isə artıq neçə ildir ki, Heydər Əliyev Beynəlxalq Hava Limanı birinci yerdədir. Mənim göstərişimlə digər şəhərlərimizdə inşa edilmiş hava limanları bizim nəqliyyat potensialımızı böyük dərəcədə gücləndirir. Son illərdə 7 hava limanı inşa edilmişdir. Onlardan 6-sı beynəlxalq statusa malikdir və bütün növ təyyarələri, o cümlədən ən ağır yük təyyarələrini qəbul edə bilir. Bildiyiniz kimi, Füzuli şəhərində yeni beynəlxalq hava limanının inşasına start verilib və azad edilmiş torpaqlarda - ya Laçın, ya Kəlbəcər rayonlarının ərazisində ikinci beynəlxalq hava limanı inşa ediləcək.

Bir sözlə, nəqliyyat sektoruna göstərilən diqqət və aparılan düşünülmüş siyasət, bax, bu reallığı yaratmışdır. Bu gün nəqliyyat sektorumuz həm müasirdir, həm də ölkə qarşısında duran vəzifələri icra etməyə imkan verir. Eyni zamanda, bu sahəyə qoyulan milyardlarla dollar səviyyəsində sərmayələr artıq bizim qeyri-neft iqtisadiyyatımıza öz müsbət təsirini göstərir. Nəqliyyat sektoruna qoyulan sərmayələr 1-2 ilə, hətta 5-10 ilə geri qayıdan sərmayələr deyil. Bu, uzunmüddətli sərmayədir. Bu sərmayələr insanların rahatlığına və ölkənin uzunmüddətli dayanıqlı inkişafına nail olmaq üçün qoyulubdur. Digər sahələrə gəldikdə, burada da müsbət dinamika, tərəqqi var. Hesab edirəm ki, Azərbaycan rabitə və yüksək texnologiyalar sahəsində bölgədə mərkəzi rol oynayır. Təsadüfi deyil ki, artıq dünya miqyasında böyük nüfuz qazanmış “Bakutel” sərgisi ənənəvi olaraq Bakıda keçirilir. Beynəlxalq Telekommunikasiya İttifaqının rəhbərləri ilə mənim çoxsaylı görüşlərim onu göstərir ki, bizdə bu sahəyə qoyulan investisiyalara və yetirilən diqqətə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymət verilir. Hesab edirəm ki, biz ölkə daxilində rabitə sahəsində bütün əsas məsələləri həll etmişik. İnternet istifadəçilərinin sayı 80 faizdən çoxdur. Hər kəs bilir ki, Azərbaycanda internet azaddır, heç bir senzura, heç bir məhdudiyyət yoxdur.

Əlbəttə ki, mən texnoloji inkişafla bağlı görülmüş işlər arasında peykləri qeyd etməliyəm. Bu sahəyə rəhbərlik edən şəxs kimi, Siz bütün bu işləri yaxşı bilirsiniz. Biz peykləri orbitə çıxaranda bəziləri sual verirdilər ki, bu, nə üçün lazımdır. Ancaq həyat göstərdi ki, bu, bizə çox lazımdır. Həm müharibə dövründə, həm müharibədən sonrakı dövrdə peyklərdən istifadə bizə çox böyük üstünlük təmin etdi. Bizim həm telekommunikasiya, həm Yer səthini müşahidə edən peyklərimiz qarşıda duran bütün vəzifələri icra etmək üçün imkan yaradır. Biz məhdud sayı olan kosmik klubun üzvüyük. Burada kadr hazırlığı əlbəttə ki, önəmli rol oynayır. Bu sahədə çalışan kadrlar artıq bizim ümumi intellektual potensialımızı gücləndirirlər.

***Ardı Səh. 3***

## Rəsmi xronika

Prezident İlham Əliyev Ramin Namiq oğlu Quluzadənin Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri vəzifəsindən azad edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Ramin Quluzadənin Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Ramin Namiq oğlu Quluzadə Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri təyin edilib.

***

Prezident İlham Əliyev Oqtay Qəşəm oğlu Şahbazovun Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Rəşad Nəbi oğlu Nəbiyevin “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Rəşad Nəbi oğlu Nəbiyevin Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin edilməsi barədə Sərəncam imzalayıb.

# "Bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir"

*Prezident İlham Əliyev Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

**Əvvəli Səh. 2**



Eyni zamanda, Vətən müharibəsi dövründə düşmənin hərəkətlərini onlayn formatda izləmək və onların təxribatlarının qarşısını almaq əlbəttə ki, bizə əlavə üstünlük yaratdı. Təsadüfi deyil ki, Vətən müharibəsi, Azərbaycanın apardığı əməliyyatlar dünyada hərbi ekspertlər tərəfindən XXI əsrin müharibəsi adlandırıldı. Çünki bu, texnoloji inkişaf baxımından bir yenilik idi.

Müharibədən sonra - hazırda bizim bərpa işləri ilə bağlı planlarımız üçün də peyklərin çox böyük əhəmiyyəti var. Sizin mənə təqdim etdiyiniz məlumatlar əsasında biz indi daha böyük səmərə ilə minatəmizləmə işləri görürük. Eyni zamanda, kənd təsərrüfatının, meşə fondunun, su resurslarının, ekoloji vəziyyətin gələcək inkişafı ilə bağlı peykdən ötürülən məlumatlar xüsusi əhəmiyyətə malikdir. Biz burada heç bir ölkədən asılı deyilik. Eyni zamanda, gələcəkdə bərpa işlərini düzgün təşkil etmək üçün bu imkanlar əlbəttə ki, bizə böyük üstünlük yaradır. Bir sözlə, Azərbaycanda həm nəqliyyat, həm texnologiyalar, həm də rabitə sahələrində görülmüş işlərə birmənalı şəkildə müsbət qiymət vermək olar. Bu müsbət qiyməti, o cümlədən dünyanın aparıcı maliyyə qurumları və Davos Ümumdünya İqtisadi Forumu vermişdir.

Gələcək vəzifələrə gəldikdə, əlbəttə ki, bu müsbət dinamika saxlanmalıdır. Eyni zamanda, heç kimə sirr deyil ki, dünyada texnologiyalar çox sürətlə inkişaf edir və biz addımlarımızı bu inkişafa uyğun şəkildə atmalıyıq. Əlbəttə, Azərbaycanda texnologiyaların inkişafı sahəsində daha böyük addımlar atılmalıdır. Xüsusilə gənclərı bu işlərə biz daha geniş miqyasda cəlb etməliyik. Mən istedadlı gənclərlə görüşlər əsnasında bir şeyi gördüm ki, onların bəziləri öz biliklərini, innovasiyaları həyata keçirmək üçün xaricə üz tuturlar. Misal üçün, startaplarla bağlı bizim siyasətimiz əlbəttə ki, müsbətdir. Ancaq bu istedadlı gənclərlə görüşlər əsnasında aydın oldu ki, onların bir çoxları xaricdə fəaliyyət göstərirlər və Azərbaycana gəlirlər, gedirlər. Biz elə bir şərait yaratmalıyıq ki, istedadlı gənclərimiz Azərbaycanda fəaliyyət göstərsinlər, öz biliklərini burada tam realizə edə bilsinlər və ölkə iqtisadiyyatına, ölkəmizin güclənməsinə xidmət etsinlər. Ona görə yeni texnologiyaların Azərbaycanda tətbiqi prioritet məsələlərdən biridir. Burada, ilk növbədə, əlbəttə ki, dünyada artıq üzə çıxan ən müasir texnologiyaların Azərbaycanda tətbiqindən söhbət gedir. Bunu biz mütləq etməliyik. Ən müasir texnologiyalar Azərbaycanda bütün sahələrdə tətbiq edilməlidir. Eyni zamanda, istedadlı insanların fəaliyyəti daha düzgün təşkil edilməlidir ki, Azərbaycan texnologiyaların istehsalçısı kimi də öz rolunu oynasın və öz sözünü desin. Məsələn, nə üçün biz, ictimai xidmətlər sahəsində texnologiyaları icad edən və ixrac edən ölkəyə çevrilə bilmişik? Çünki qarşıya düzgün hədəflər qoyulmuşdur, kadr təminatı düzgün seçilmişdir və Prezident tərəfindən bu sahəyə daim diqqət göstərilib. Ancaq bu diqqət bütün qurumlar tərəfindən göstərilməlidir. Çünki mənim tərəfimdən verilən tapşırıq bəzi hallarda müəyyən müddət ərzində icra edilir, ondan sonra icra edilmir, ya da ki, unudulur, yaxud da hansısa başqa xoşagəlməz hallar meydana çıxır. Ona görə dövlət qurumları, nazirliklər, dövlət şirkətləri mənim göstərişlərimi axıra qədər icra etməlidirlər və belə olan halda heç bir yerdə axsama olmayacaq.

> **İndi sirr deyil, elə peşələr var ki, 5 ildən sonra bu peşələr sıradan çıxacaq, yəni olmayacaq. Yeni peşələr meydana çıxacaq və biz hazır olmalıyıq ki, bu peşələrə yiyələnək**

Yeni texnologiyaların tətbiqi imkan verəcək ki, biz bundan sonra da öz hərbi gücümüzü daim yüksək səviyyədə saxlaya biləк. Bu gün Azərbaycan döyüş meydanında öz üstünlüyünü göstərib. Həm qəhrəman övladlarımızın şücaəti, fədakarlığı, eyni zamanda, texniki təchizat və əlbəttə ki, yeni texnologiyaların tətbiqi müharibədə qələbənin qazanılmasının əsas amillərindən biridir. Texnoloji təminat, əlbəttə ki, bizə əlavə imkanlar yaratdı. Ancaq mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, torpaqları azad edən Azərbaycan əsgəri olub, Azərbaycan zabiti olub. Bayrağı azad edilmiş torpaqlara gətirən də və yüksəklərə qaldıran da Azərbaycan vətəndaşı olub.

Buna baxmayaraq, biz texnoloji inkişaf sahəsində daim qabağa hədəflənməli, hərbi sahədə yenilikləri Azərbaycana gətirməliyik. Nəzərə alsaq ki, bizim bu sahədə aparıcı ölkələrlə çox sıx dostluq əlaqələrimiz var və Azərbaycana texnoloji ixracla bağlı hər hansı bir məhdudiyyət yoxdur, biz bu sahədə daim qabaqlayıcı addımlar atmalıyıq. Hər zaman öz siyasətimizi elə qurmalıyıq ki, Azərbaycanın hərbi potensialı, müdafiə qabiliyyəti daim yüksək səviyyədə olsun və heç vaxt heç kim bizə qarşı hər hansı bir təxribat törətməyə belə cəhd etməsin.

Azad edilmiş torpaqlarda bərpa işlərini apararkən mütləq yüksək texnologiyalardan istifadə olunmalıdır. Hazırda minalardan təmizləmə prosesi gedir. Bununla paralel olaraq şəhərsalma layihələri icra edilir. Şəhərsalma layihələri hazır olandan sonra biz artıq praktiki inşaat işlərinə start verəcəyik. Burada infrastruktur layihələri ilə bərabər, mütləq nəqliyyat və texnologiyalar sahələri də diqqət mərkəzində olmalıdır. Mən artıq bəyan etmişəm ki, azad edilmiş ərazilər bütövlükdə yaşıl enerji zonası olmalıdır, buna imkan var. Bizim su resurslarımız kifayət qədər geniş həcmlidir. Eyni zamanda, günəş və külək enerjisi növlərinin yaradılması üçün imkanlar var. Xarici tərəfdaşları, investorları bu işlərə mütləq cəlb etmək, yerli şirkətlərə şərait yaratmaq lazımdır. Azad edilmiş torpaqlar yüksək texnoloji inkişaf ərazisi olmalıdır.

Yaşıl enerji zonası ilə bərabər, kənd təsərrüfatında ən müasir texnologiyalar tətbiq edilməlidir. Nəzərə alsaq ki, azad edilmiş ərazilərdə torpaqlar çox münbitdir, həm bitkiçilik, həm heyvandarlıq üçün çox böyük imkanlar var, çox böyük örüş sahələri var, orada kənd təsərrüfatının ən müasir texnologiyalar əsasında inkişafı mütləq təmin edilməlidir. Biz bu işi indidən planlaşdırmalıyıq ki, məhsuldarlıq yüksək olsun.

Azad edilmiş ərazilərdə qurulacaq şəhərlər və kəndlər "smart-city", "smart-village", - yəni, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında qurulmalıdır. Bu işləri indidən planlaşdırın ki, şəhərsalma aparılarkən, layihələr icra edilərkən mütləq dünyanın ən qabaqcıl texnologiyaları orada tətbiq olunsun. Ondan sonra və bəlkə də bununla paralel olaraq, bizim digər şəhər və kəndlərimizdə buna oxşar layihələri də icra etmək lazımdır. Çünki əgər biz bunu bu gün etməsək, sabah geri qalacağıq. Biz geri qala bilmərik. Bildiyiniz kimi, Davos Ümumdünya İqtisadi Forumunda iştirakım zamanı 10-larla şirkətlə görüşlərim olur, onların böyük əksəriyyəti texnoloji şirkətlərdir. Bu görüşlər əsnasında görürəm ki, dünyada hansı yeniliklər var, hansı müsbət inkişaf var və çalışıram ki, o şirkətləri Azərbaycana cəlb edim. Ona görə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası işlənməlidir və tətbiq edilməlidir.

Kadr hazırlığı xüsusi yer tutur. Hesab edirəm ki, hazırda bu sahədə kifayət qədər peşəkar kadr potensialı yaranmışdır. Biz gənclərimizi xaricdə aparıcı ali məktəblərdə oxutmaq üçün böyük proqramlar icra etdik və bu gün bu davam edir. Şadam ki, xaricdə təhsil alan gənclərimizin böyük əksəriyyəti ölkəmizə qayıdıb və bu, bizim kadr potensialımızı gücləndirir. Hesab edirəm ki, sizin nazirliyiniz bu sahədə - təhsillə bağlı müvafiq ali məktəblərlə də sıx təmasda olmalıdır. Kadr hazırlığı ölkəmizin iqtisadi və texnoloji inkişafı ilə uzlaşmalıdır. Ancaq belə olan halda, biz istədiyimizə nail ola bilərik.

Azad edilmiş ərazilərdə hazırda böyük nəqliyyat layihələri icra edilməyə başlanmışdır, Füzuli Hava Limanının inşası başlamışdır. Qeyd etdiyim kimi, Kəlbəcər, yaxud Laçın rayonlarının ərazisində ikinci hava limanı inşa ediləcək. Biz Füzuli-Şuşa avtomobil yolunun inşasına start vermişik. Bununla paralel olaraq, indi bölgədə nəqliyyat-kommunikasiya sahəsində böyük layihələr müzakirə edilir. Burada əlbəttə ki, Horadiz-Zəngilan dəmir yolu, ondan sonra Zəngilan-Naxçıvan dəmir yolu, Naxçıvan-Türkiyə dəmir yolu layihələri prioritet təşkil edir və digər layihələr də, həmçinin.

***Ardı Səh. 4***

# "Bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir"

*Prezident İlham Əliyev Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*

Əvvəli Səh. 3

Çünki hesab edirəm ki, müharibədən sonra yaranmış vəziyyət bölgə ölkələri üçün yeni imkanlar açır. Azərbaycan bu sahədə əməkdaşlığa hazırdır və bu işə öz töhfəsini verməkdədir. Mənim tərəfimdən göstəriş verildi ki, Horadiz-Ağbənd dəmir yolunun layihələndirilməsi başlasın. Artıq start verildi və digər layihələr də, həmçinin. Burada ən müasir texnologiyalar tətbiq edilməlidir ki, Azərbaycan bu sahədə də daim liderliyi öz əlində saxlaya bilsin. Mən ümid edirəm ki, siz bütün bu vəzifələri şərəflə yerinə yetirəcəksiniz.

Ölkəmizin inkişafı üçün indi yeni imkanlar açılıb. Azərbaycan özünü dünyada ləyaqətli, güclü, məsuliyyətli ölkə kimi göstərmişdir. Müharibə bir çoxlarına Azərbaycanın potensialının nədən ibarət olduğunu göstərmişdir. Biz döyüş meydanında qələbə qazandıq, biz mülki sahədə qələbə qazandıq. Çünki əgər güclü iqtisadiyyat qurmasaydıq, güclü ordu qura bilməzdik. Ona görə bütün amillərin sintezi həm qələbəni şərtləndirdi, həm də bundan sonra bizim inkişaf dinamikamızı da şərtləndirəcək. Hətta pandemiya dövründə də bizim qeyri-neft sənayemiz artmışdır, özü də böyük dərəcədə. Keçən il qeyri-neft sənayemiz 12,5 faiz artmışdır. Nəyə görə? Texnoloji inkişaf, sənayeləşmə, investisiyalar, güzəştli şərtlərlə kreditlərin verilməsi, dövlət-özəl sektor tərəfdaşlığı - bütün bu amillər öz rolunu oynayıb. Texnologiyalar, telekommunikasiya sahələrində artıq bir çox yerli şirkətlər yaranmışdır və həm Azərbaycanda, həm də xaricdə fəaliyyət göstərir. Biz onlara da dəstək verməliyik. Onların xaricdəki fəaliyyətlərini dəstəkləməliyik və burada da dövlət-özəl sektor tərəfdaşlığı bir nümunə olmalıdır. Bu sahə hər bir ölkə üçün, deyə bilərəm ki, hər bir ölkənin gələcəyi üçün həlledici sahədir. Texnoloji inkişafda kim qabağa gedibsə, o da udacaq, kim geridə qalıbsa, asılı vəziyyətdə qalacaqdır. İndi sirr deyil, elə peşələr var ki, 5 ildən sonra bu peşələr sıradan çıxacaq, yəni olmayacaq. Yeni peşələr meydana çıxacaq və biz hazır olmalıyıq ki, bu peşələrə yiyələnək. Hazır olmalıyıq, kadr potensialımız imkan versin ki, dünyada gedən sənayeləşmə, xüsusilə Dördüncü Sənaye İnqilabı ilə bağlı proseslər daim Azərbaycanın inkişafını təmin etsin. Təsadüfi deyil ki, Davos Ümumdünya Forumu məhz Azərbaycanı Dördüncü Sənaye İnqilabının mərkəzlərindən biri seçdi. Məhz onların təşəbbüsü ilə bu baş verdi və müvafiq sənəd də imzalandı.

Ona görə sizin nazirliyinizin üzərinə böyük funksiyalar düşür. Mən sizdən əvvəl bu vəzifədə çalışmış nazirin fəaliyyətindən də razıyam. O da öz vəzifə borcunu şərəflə yerinə yetirirdi, bir çox önəmli məsələləri həll etmişdir, Azərbaycanın bu sahədəki inkişafını təmin etmişdir. Ancaq hər yerdə islahatlar gedir, islahatlar labüddür və ölkə qarşısında yeni vəzifələr durur. Mən hesab edirəm ki, siz bu vəzifələri icra edə bilərsiniz. Hər halda, buna ümid edirəm. Bir daha qeyd etmək istəyirəm ki, bu, sizə göstərilən böyük inamdır, etimaddır və sizin üçün böyük məsuliyyətdir. Siz bu məsuliyyəti öz işinizlə doğrultmalısınız.

**Nazir Rəşad Nəbiyev:**

-Təşəkkür edirəm, cənab Prezident. Əvvəlcə, icazə versəydiniz Sizi rəhbərliyinizlə qazanılmış böyük Qələbə münasibətilə təbrik edərdim. 44 günlük müharibədə Ordumuzun göstərdiyi peşəkarlıq nümayiş etdirdi ki, bu gün Azərbaycanda istənilən sahədə güclü kadr potensialı formalaşmışdır. Sizin seçim imkanlarınızın geniş olduğu bir təqdirdə mənə bu yüksək etimadı göstərdiyiniz üçün Sizə dərin təşəkkürümü bildirirəm və bu fakt özlüyündə mənim məsuliyyətimi daha da artırmış olur.

Görülən işlərə verdiyiniz qiymətlə bağlı isə qeyd edim ki, Sizdən bu sözləri eşitmək şərəfli olduğu qədər də məsuliyyətlidir. Amma heç şübhəsiz ki, Sizin yürütdüyünüz xarici siyasət nəticəsində ölkəmizin etibarlı tərəfdaş imici olmasaydı, heç bir dövlət peyklər kimi yüksək texnoloji məhsulları bizə ixrac etməzdi. Eyni zamanda, cənab Prezident, Sizin yürütdüyünüz daxili siyasət nəticəsində ölkəmizin iqtisadi qüdrəti və nəticə etibarilə maliyyə resurslarımız olmasaydı, bu peykləri əldə etmək imkanımız da olmazdı. Ən başlıcası isə, cənab Prezident, Sizin kosmik sənayenin inkişafına göstərdiyiniz davamlı diqqət və qayğı uğurlarımızı şərtləndirən əsas amillər olmuşdur. Mənim və həmkarlarımın üzərinə düşən vəzifə isə, sadəcə, bu əlverişli vəziyyətdən istifadə edərək Sizin etimadınızı doğrultmaq idi. Yeni təyinatla üzərimə düşən vəzifələri və bu vəzifələrdən irəli gələn şəxsi məsuliyyətimi də tam şəkildə dərk edirəm. Nazirliyin tabeliyində olan müəssisələrin səmərəli fəaliyyət göstərməsi üçün onların ən qısa zamanda korporativləşmələrinin vacib olduğunu anlamaqla yanaşı, əsas vəzifəmizin sahə üzrə, yəni, nazirliyə həvalə edilmiş sahə üzrə effektiv dövlət siyasətinin həyata keçirilməsi, ədalətli tənzimləmə mexanizmlərinin yaradılması və nəticə etibarilə ədalətli rəqabət mühitinin formalaşdırılmasıdır.

Cənab Prezident, Siz hər zaman söyləyirsiniz ki, əgər ədalətli rəqabət mühiti formalaşarsa, o zaman həmin sektora xarici investisiyaların axını baş verər və bu da özlüyündə yalnız həmin sektorda deyil, ümumiyyətlə, ölkədə innovasiya və texnologiyaların inkişafını təşviq etmiş olar.

Cənab Prezident, sonda icazə verin, Sizi əmin edim ki, iqtisadi islahatların dərinləşməsi ilə bağlı qarşıya qoyduğunuz tapşırıqlara da sahə nazirliyi olaraq öz töhfəmizi verə bilmək üçün əlimizdən gələni əsirgəməyəcəyik. Həmkarlarımla birlikdə nazirliyin səlahiyyətləri çərçivəsində qəbul edəcəyimiz bütün qərarların və atacağımız bütün addımların əsas qiymətləndirmə meyarı Sizin siyasətinizin ayrılmaz hissəsi olan Azərbaycan vətəndaşlarının sosial maraqlarının qorunması olacaqdır. Göstərdiyiniz bu yüksək etimada görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Çalışacağıq ki, bütün işimizdə Sizin etimadınızı doğruldaq. Cənab Prezident, çox sağ olun.

# Prezident İlham Əliyev Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan Batist Lömuanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlət katibi Jan Batist Lömuan dörd il əvvəl Azərbaycana səfərini və Bakıda Fransız-Azərbaycan Universiteti - UFAZ-ın yeni tədris binasının açılışında iştirakını məmnunluqla xatırladı.

Söhbət zamanı regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycan-Fransa əlaqələrinin gündəliyinə toxunuldu. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

## AŞPA-da Ermənistan nümayəndələrinin təklifləri rədd edilib

AŞPA-nın qış sessiyası çərçivəsində qurumun monitorinq prosedurunun inkişafına dair qətnamə layihəsi müzakirə olunaraq qəbul edilib. AZƏRTAC xəbər verir ki, Ermənistan nümayəndə heyətinin qətnaməyə dəyişikliklər edilməsi ilə bağlı cəhdləri iflasa uğrayıb. Ermənilərin təklif etdiyi dəyişikliklər səs çoxluğu ilə rədd edilib. Erməni nümayəndə heyəti AŞPA qətnaməsinə üçtərəfli bəyanat qüvvəyə mindikdən sonra Azərbaycan ərazilərində saxlanılmış diversant və terrorçuları hərbi əsir kimi təqdim edərək, onlara qarşı cinayət işi açılmasına etirazları, hərbi əsirlərin, girovların və digər saxlanılan şəxslərin mübadiləsi, eləcə də erməni dini abidələri ilə bağlı bir neçə dəyişiklik təklif edib. Təkliflərin heç biri səsvermədən keçməyib.

## Ahmet Yıldız: Türkiyə ilə Azərbaycan arasında koordinasiya yüksək səviyyədədir



Ermənistan yaranmış şansdan istifadə etməyi bacarmalıdır. Azərbaycanla dərhal razılığa gəlməli və keçmişdən danışmamalıdır. Rəsmi İrəvan Türkiyə, Azərbaycan və Gürcüstan ilə münasibətlərinə yenidən nəzər salaraq onları inkişaf etdirməlidir. Əvvəllər olduğu kimi, kin və nifrət dolu bəyanatlar Ermənistana kömək etməyəcək. Ermənistan nümayəndə heyəti AŞPA, eləcə də NATO Parlament Assambleyasının iclaslarındakı ritorikalarından əl çəkməli, Azərbaycanla dialoq quraraq barışıq üçün çalışmalıdır.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyənin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Ahmet Yıldız bildirib. A.Yıldız qeyd edib ki, Avropa Şurası yeni vəziyyətə, gerçəkliyə və qərarlarına diqqət yetirərək barışa dəstək verməli, Ermənistan nümayəndələrinin əsassız fikirlərini dəstəkləməməlidir. Ölkələrimiz arasında münasibətlərə toxunan nümayəndə heyətinin rəhbəri vurğulayıb ki, Türkiyə ilə Azərbaycan arasında koordinasiya yüksək səviyyədədir.

# Hikmət Hacıyev: 1200 erməni hərbi qulluqçusunun cəsədi erməni tərəfinə qaytarılıb

**Vaşinqtonda fəaliyyət göstərən ən nüfuzlu "beyin mərkəzləri"ndən biri - "Atlantik Şurası" ("Atlantic Council") Ermənistan-Azərbaycan müharibəsinin yekunlarına və münaqişədən sonrakı dövrdə regional əməkdaşlığın perspektivlərinə həsr edilmiş onlayn-seminar keçirib.**

SİA-nın məlumatına görə, moderatoru "Atlantik Şurası" nəzdində Avrasiya Mərkəzinin direktoru, ABŞ-ın Ukraynadakı sabiq səfiri Con Herbst olan tədbirdə mərkəzin və auditoriyanın suallarını Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev cavablandırıb.

Hikmət Hacıyev deyib ki, Ermənistan ilə Azərbaycan arasında 44 günlük müharibə nəticəsində Yerevanın son 26 ildə sui-istifadə etdiyi qondarma "status-kvo" ləğv edilib və bundan sonra Cənubi Qafqazda qarşıdurma əməkdaşlığa və regional inteqrasiyaya transformasiya olunmalıdır. Prezidentin köməkçisi 2020-ci ilin sentyabr ayında hərbi əməliyyatlara hansı tərəfin başlaması barədə suala cavab verərək qeyd edib ki, sonuncu silahlı münaqişənin səbəblərini aydınlaşdırmaq üçün müharibəyə gətirib çıxarmış şəraiti nəzərdən keçirmək lazımdır. Ermənistan və Azərbaycan liderlərinin Düşənbədəki görüşündən sonra Prezident İlham Əliyev xoş məram nümayiş etdirərək Ermənistanın baş nazirinin Dağlıq Qarabağ münaqişəsini Ermənistanda sabitlik yaradılandan sonra nizamlamaq məsələsinə qayıtmasına icazə



verib, lakin Ermənistanın baş naziri bu xoş münasibətdən sui-istifadə edib və sonradan millətçi bəyanatlarla çıxış etməyə başlayıb, o cümlədən Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz səfərinin gedişində "Arsax" (Qarabağ - AZƏRTAC) Ermənistandır və nöqtə" deyib. Paşinyanın bu cür absurd bəyanatlarından əlavə, Ermənistanın müdafiə naziri Tonoyan ABŞ-da erməni diasporu ilə görüşündə Ermənistanın "yeni ərazilər uğrunda yeni müharibə" doktrinasını bəyan edib. Bütün bu bəyanatlar, üstəlik ötən ilin iyul ayında Tovuz rayonunda erməni tərəfinin silahlı təxribatları, Azərbaycanın mülki obyektlərinin və Azərbaycan Ordusunun mövqelərinin sentyabr ayında məqsədyönlü şəkildə artilleriya atəşinə tutulması Azərbaycan Ordusunun BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini yerinə yetirmək və Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək məqsədilə bütün cəbhə boyu əks-hücuma gətirib çıxardı.

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, münaqişənin silahlı fazasında Azərbaycan dəfələrlə hərbi əməliyyatları dayandırmağa hazır olduğunu bildirib, bu şərtlə ki, Ermənistan erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması qrafikini dərhal təqdim etsin. Lakin belə olmadı və nəhayət, noyabr ayında Şuşa şəhəri və Azərbaycanın digər əraziləri azad ediləndən sonra Ermənistan Bakının şərtlərini qəbul etməyə məcbur oldu.

Hikmət Hacıyev vurğulayıb ki, Azərbaycan RF sülhməramlı kontingenti ilə "açıq dialoqu və kommunikasiyanı" dəstəkləyir, bu kontingentin nümayəndələri "öz işini peşəkar səviyyədə yerinə yetirir". Azərbaycan Prezidentinin köməkçisi erməni hərbi əsirləri barədə sualın cavabında bəyan edib ki, noyabrın 9-da məlum bəyanat imzalanandan sonra Azərbaycanın dövlət sərhədini keçmiş 62 nəfər silahlı erməninin məqsədi Azərbaycan mövqelərinə hücum etmək idi, onlar hətta özləri ilə müəyyən texnika da götürmüşdülər. Bu şəxslər hərbi əsir deyil, onlar əsirlərin digər kateqoriyasına aiddir. Bəyanat imzalanandan sonra Azərbaycan təqribən 1200 erməni hərbi qulluqçusunun cəsədini erməni tərəfinə qaytarıb.

Prezidentin köməkçisi seminarın erməni iştirakçılarına xatırladıb ki, Birinci Qarabağ müharibəsindən sonra 4000-dən çox azərbaycanlı hələ də itkin düşmüş hesab edilir və Ermənistan bu şəxslər barədə məlumat təqdim etməlidir.

Onlayn-seminarın gedişində Hikmət Hacıyev auditoriyaya münaqişənin başlanması barədə, o cümlədən keçmiş SSRİ-nin müəyyən dairələri tərəfindən təşkil olunmuş və etnik erməni Eduard Qriqoryan kimi cinayətkarlar tərəfindən icra edilmiş Sumqayıt hadisələri barədə də məlumat təqdim edib. İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və həmin ərazilərdə yenidənqurma, azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qaytarılması planı da müzakirə edilib. Diqqətə çatdırılıb ki, Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan ermənilər ölkəmizin tamhüquqlu vətəndaşlarıdır və Azərbaycan qanunlarının, onun Konstitusiyasının aliliyini qəbul etməyə borcludurlar.

Hikmət Hacıyev münaqişədən sonrakı dövrdə ATƏT-in Minsk qrupunun rolu barədə suala cavab verərək deyib ki, Minsk qrupu iki tərəf arasında etimadın möhkəmlənməsi tədbirlərinin müəyyən olunmasına kömək edə bilər. Azərbaycan Prezidentinin köməkçisi sonda bəyan edib ki, Amerika şirkətləri Azərbaycanın Qarabağ regionunun infrastrukturunun bərpasına investisiyalar qoymaq və bu işlərdə iştirak etmək yolu ilə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulmasına və regional inteqrasiyaya öz töhfələrini verə bilər.

# Adil Əliyev: Ölkəmiz münasibətlərini dostluq, qardaşlıq mövqeyini əsas götürməklə formalaşdırır

**Nəhayət ki, uzun illərdən bəri ölkəmizlə Türkmənistan arasında mübahisə predmetinə çevrilən "Dostluq" yatağının karbohidrogen ehtiyatlarının birgə istismarına dair Anlaşma Memorandumu imzalandı və bu tarixi hadisə münasibətilə Azərbaycan ilə Türkmənistanın dövlət başçıları arasında videokonfrans formatında görüş keçirildi. İmzalanan sənəd bir daha göstərdi ki, Azərbaycan nəinki Cənubi Qafqaz bölgəsində, ümumiyyətlə dünyada sülhün və sabitliyin, ölkələr arasında dostluq və əməkdaşlığın ən böyük dəstəkçisidir. Ölkəmizin maraqlarına zidd olmadığı təqdirdə əməkdaşlıq və dostluq siyasətimizin əsas xəttidir. Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.**



Sədr müavini qeyd edib ki, "Kəpəz" yatağının adı mübahisə doğurduğundan, imzalanan sənəddə tərəflər onu iki ölkənin dostluğunun və getdikcə dərinləşən tərəfdaşlığının rəmzi olaraq "Dostluq" adlandırmağı qərara alıblar. Hazırda "Dostluq" adlandırılan bu iri karbohidrogen yatağı ölkələrimiz arasında gündən-günə möhkəmlənən dostluğun, qardaşlığın və qarşılıqlı əlaqələrin bariz nümunəsi kimi çox dəyərlidir.

"Qeyd edək ki, Azərbaycan və Türkmənistan dövlət müstəqilliklərini qazandıqları vaxtdan etibarən iki dost ölkə arasında bu yataqla bağlı mübahisələr daim olub. Bu günlərdə imzalanmış müqavilə ilə həmin mübahisəyə birdəfəlik son qoyuldu. Müstəqillik dövründə Türkmənistan və Azərbaycan dövlət başçılarının 5 dəfə qarşılıqlı səfərləri olub. Həmin səfərlər zamanı 50-dən çox sənəd imzalanıb. Qarşılıqlı münasibətlərin bütün tarixi ərzində isə ümumiyyətlə 100-dən çox sənəd imzalanıb ki, onların yarısı son 3 ilin payına düşür. Hazırkı Anlaşma Memorandumu dostluq və əməkdaşlığa dair imzalanmış sənədlərin məntiqi yekunu oldu. Çünki həmin sənədlər və münasibətlər memorandumun bazisini təşkil etdi.

Bu anlaşma ölkəmizin geosiyasi mövqeyini də ön plana çıxarır. Belə ki, Türkmənistanın təbii qaz ehtiyatları ümumdünya ehtiyatlarının 9 faizini təşkil edir və bu göstərici ilə Türkmənistan dünyada dördüncü yeri tutur. Lakin indiyədək bazara birbaşa çıxışlarının olmaması və qiymətlərin alıcı tərəfindən tənzimlənməsi Türkmənistanın resurslarından səmərəli istifadəyə imkan verməmişdi. Baxmayaraq ki, bu asılılığa son qoymaq məqsədilə Türkmənistan Çin və İran bazarlarına yol tapmışdı. İndi isə Türkmənistan Azərbaycanın vasitəsilə əsas istehlak bazarı olan Avropaya çıxış imkanı əldə edəcəkdir", - deyə Adil Əliyev vurğulayıb.

Sədr müavini qeyd edib ki, Türkmənistan resurslarının dünyaya ölkəmiz vasitəsilə çıxarılması bizim üçün də olduqca əhəmiyyətlidir. Belə ki, bütün dünyada neft-qaz ixracatçısı kimi tanınan Azərbaycanın tranzit ölkə kimi də əhəmiyyəti daha da artıracaq. Ölkəmizdə təbii qaz resursları TAP xətti vasitəsilə Avropaya birbaşa nəql edilir. Həmçinin Asiya qazının Avropaya ölkəmiz vasitəsilə çatdırılması ölkəmizi həm Avropada, həm də Asiyada çox böyük söz sahibinə çevirəcək: "Belə ki, bu günə qədər yalnız öz karbohidrogen ehtiyatlarımızı Avropaya çatdırsaq da, indi tranzit xətlər hesabına əlavə gəlirlər əldə edəcəyik. Bu isə geosiyasi mövqeyimizi möhkəmləndirməklə yanaşı, iqtisadi sahədə də əlavə gəlirlərin əldə edilməsinə zəmin yaradacaq.

Onu da qeyd edək ki, Azərbaycanla Türkmənistan beynəlxalq strukturlarda da daim bir-birini fəal surətdə dəstəkləyir. Ölkəmiz BMT Baş Assambleyasının Türkmənistanın əbədi neytrallığı barədə Qətnaməsinin həmmüəllifi olmaqla yanaşı, Türkmənistan da, öz növbəsində, Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirib və öz dəstəyini ifadə edibdir. Habelə beynəlxalq təşkilatlarda ölkəmizin təşəbbüsləri Türkmənistan tərəfindən fəal dəstəklənir. Xəzər hövzəsində yaranmış bu dostluq mühiti bütün ölkələrə təsir edəcək və dövlətimizin daha sürətli inkişafına dəstək verəcək.

## Ceyhun Bayramovla Mövlud Çavuşoğlu arasında telefon danışığı olub




Yanvarın 26-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub. Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsindən SİA-ya bildiriblər ki, nazirlər dəniz quldurlarının Türkiyəyə məxsus gəmiyə hücumu nəticəsində öldürülmüş azərbaycanlının nəşinin Vətənə gətirilməsi üçün əlaqələndirilmiş şəkildə tədbirlərin görülməsi ilə bağlı fikir mübadiləsi aparıblar. Tərəflər, həmçinin regional əməkdaşlıq məsələlərini müzakirə ediblər.

## "AŞPA-dakı bəzi qrupların gərginliyi səngiməyib, onlar vəziyyəti qızışdırmağa çalışırlar"



Bu gün burada danışmaq böyük şərəfdir. 20 ildir bu təşkilatda Azərbaycan nümayəndə heyəti ilə ölkəmizi təmsil edirik. 20 il əvvəl Azərbaycan bu təşkilata üzv olanda, böyük ağrıları var idi, torpaqları işğal altında idi. Bu illər ərzində burada ədalətsizliklərlə üzləşmişik, onun şahidi olmuşuq. Bu illər ərzində ərazilərimizlə bağlı ədalətin bərpa edilməsinə çalışmışıq. Həmişə Avropa Şurasına böyük ağrılarla gəlmişik. Bu gün son dərəcə qürurluyam, əraziləri ilə bağlı ədaləti, ərazi bütövlüyünü bərpa edən ölkənin nümayəndəsi kimi fəxr edirəm.

AZƏRTAC xəbər verir ki, bu fikirləri ölkəmizin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qurumun qış sessiyası çərçivəsində qurumun monitorinq prosedurlarının inkişafına dair müzakirədə bəzi deputatların qərəzli çıxışlarına qarşı səsləndirib. Qeyd edib ki, Monitorinq Komitəsinin rolu getdikcə daha vacib olur. "Bu gün artıq müharibə haqqında düşünməməliyik. Azərbaycan və Ermənistan arasında sülh razılığı imzalanıb. İndi etimadın bərpası haqqında düşünməliyik. Yeni atmosfera yaratmaq haqqında düşünməliyik. Regionumuza Avropa Şurasının dəyərlərini gətirməliyik.

Ancaq təəssüf olsun ki, bəzi qrupların gərginliyi hələ də səngiməyib. Onlar vəziyyəti gərginləşdirməyə çalışırlar. Mövcud sülh prosesinə manelər yaratmağa çalışırlar. Bu kontekstdə düşünürəm ki, c-b Jensen tərəfindən təqdim edilən münaqişə ilə bağlı məruzə müəyyən tarazlığa xidmət edir. Bu çox vacibdir. AŞPA-dakı həmkarlarımdan, dostlarımdan xahiş edirəm ki, belə tarazlığı qoruyub saxlasınlar. Tərəfkeşlikdən yayınsınlar. Yalnız tarazlığa riayət etməklə iki xalq arasında körpü yaratmaq olar",- deyə S. Seyidov vurğulayıb.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 106-cı kitabı çapdan çıxıb

*Çoxcildliyin növbəti kitabına Azərbaycan Prezidentinin Vətən müharibəsi günlərində xalqa müraciətlərinin və xarici KİV-lərə müsahibələrinin mətnləri daxil edilib*

**Ötən il 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuz Qarabağı Ermənistanın işğalından azad etdi.**

Dövlətimizin başçısının 2020-ci il sentyabrın 27-dən başlayaraq xalqa müraciətləri, rəsmi "Twitter" səhifəsində paylaşımları, xarici KİV-lərə müsahibələri xalqımızın ədalətli mübarizəsi, Vətən müharibəsi və Qarabağ həqiqətləri barədə obyektiv təsəvvür yaratdı, informasiya cəbhəsində, diplomatiya müstəvisində üstünlüyümüzü təmin etdi. "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 106-cı kitabı tariximizin bu şanlı səhifələrini xronoloji ardıcıllıqla və sistemli şəkildə bir daha nəzərdən keçirmək üçün dəyərli mənbədir.




AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabındakı materiallar 2020-ci ilin sentyabr-oktyabr aylarını əhatə edir. Hələ sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının videoformatda ümumi debatlarında çıxışı zamanı Azərbaycan Prezidenti beynəlxalq birliyi Ermənistanın hərbi təxribatları haqqında məlumatlandıraraq demişdi: "Etnik təmizləmə aparmış işğalçı ölkənin silahlarla təchiz edilməsi sülh danışıqlarını ciddi şəkildə sarsıdır və işğalçı dövləti yeni hərbi təxribatlara əl atmağa həvəsləndirir. Bu mənada biz bütün ölkələri Ermənistana silah təchizatından çəkinməyə çağırırıq".

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti hücumu nəticəsində mülki əhali və hərbçilər arasında itkilərin, yaralananların olması və ordumuzun əks-hücum əməliyyatına başlaması ilə əlaqədar dövlətimizin başçısı xalqa müraciət etdi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır".

Prezidentin BMT sessiyasının ümumi debatlarında çıxışının, sentyabrın 27-də, oktyabrın 4-də və 9-da xalqa müraciətlərinin mətnləri 106-cı kitaba daxil edilib.

Nəşrdə dövlətimizin başçısının Vətən müharibəsi günlərində Türkiyənin "TRT Haber", "CNN-Türk", "Haber Global", "Haber Türk", Rusiyanın "Pervıy Kanal", "Rosssiya-1", RBK, "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "Euronews", "CNN International", "Sky News", "France-24" telekanallarına geniş müsahibələri də yer alıb.

Kitabda Azərbaycan Prezidentinin Türkiyə, Ukrayna, Belarus, Almaniya, İran və digər ölkələrin rəhbərləri ilə telefon danışıqları, BMT-nin Baş katibi Antonio Quterreş ilə videokonfrans formatında görüşü, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi haqqında materiallar verilib.

Oxucular dövlətimizin başçısının Təhlükəsizlik Şurasının iclasında, Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşündə çıxışlarının mətnləri, rəsmi "Twitter" səhifəsində paylaşımları ilə də bu kitabda tanış ola bilərlər.

Nəşrə Azərbaycan Prezidentinin "Kiber Kosmos buraxılışı" mövzusunda keçirilmiş virtual 71-ci beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində videomüraciətinin mətni, XXIII Avrasiya İqtisadi Zirvə toplantının iştirakçılarına məktubu və digər məktubları da daxil edilib. "Azərnəşr" tərəfindən buraxılan 106-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## "YAŞAT" Fondu tərəfindən ağır yaralanan qazilərimizin səhhətinin bərpası ilə bağlı tədbirlər davam etdirilir



"YAŞAT" Fondu tərəfindən ağır yaralanan qazilərimizin səhhətinin bərpası ilə bağlı tədbirlər davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ciddi fiziki travma alan qazilərimiz Əmirəliyev Nicat Kərəməli oğlu, Qurbanov Əbülfət Tanrıverdı oğlu, Mirzəliyev Roman Aleksandr oğlu və Sultanlı Nicat Məmi oğlu "YAŞAT" Fondu tərəfindən zəruri tibbi müayinələrdən keçiriliblər və uğurla əməliyyat olunublar. "YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Allah qazilərimizə şəfa versin!





Fond tərəfindən bu günədək 1624 şəxs öhdəliyə götürülüb və onların problemlərinin həlli davam etdirilir.

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədilə yashat.gov.az portalı istifadəyə verilib. Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau Həmçinin Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

## Tonoyan sirri açdı: Qarabağ savaşında Rusiya yardım edirdi



II Qarabağ müharibəsində Rusiya öz müttəfiqlik öhdəliklərinin icrası üçün maksimum şəkildə çalışıb. Axar.az xəbər verir ki, bunu Ermənistanın keçmiş müdafiə naziri David Tonoyan deyib.

"Bütün müharibə ərzində mən Rusiya müdafiə naziri Sergey Şoyqu ilə daimi kontaktda olmuşam. Elə günlər olub ki, biz gündə bir neçə dəfə telefonla danışmışıq. Aydın səbəblər ucbatından bütün detalları açmayacağam, amma birmənalı şəkildə deyə bilərəm ki, müharibə şəraitində Rusiya öz müttəfiqlik öhdəliklərinin icrası üçün maksimum şəkildə çalışıb", - deyə o bildirib.

# XİN: Ermənistanın AŞPA-dakı nümayəndə heyətinin qurumun qətnamə layihəsinə əsassız düzəlişlər etmək cəhdləri uğursuzluqla nəticələnib

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsi Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin "AŞPA Monitorinq prosedurunun 2020-ci il üzrə tərəqqi hesabatı" adlı qətnaməsi ilə əlaqədar KİV-in sualını cavablandırıb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 25-də Avropa Şurası Parlament Assambleyasın Monitorinq Komitəsinin "AŞPA Monitorinq prosedurunun 2020-ci il üzrə tərəqqi hesabatı" adlı qətnaməsi qəbul edilib. Qeyd olunub ki, hər il ənənəvi hazırlanan hesabatla əlaqədar qətnamə layihəsində monitorinq proseduruna və ya monitorinqdən sonrakı dialoqa cəlb edilmiş ölkələrdə, o cümlədən Azərbaycan və Ermənistanda baş vermiş əsas hadisələr qiymətləndirilir və müvafiq tövsiyələr verilir.



Sözügedən qətnamədə Ermənistan ilə Azərbaycan arasında baş vermiş döyüşlər kontektsində müvafiq bəndlər yer alıb. Belə ki, qətnamənin 5-ci bəndində komitənin 2020-ci il sentyabrın 27-də Ermənistan ilə Azərbaycan arasında Qarabağ bölgəsində baş verən döyüş əməliyyatları ilə bağlı hadisələri izlədiyi, bu mövzuda cari məsələlər üzrə debat irəli sürdüyü, hər iki tərəfdən deputatların iştirakı ilə fikir mübadiləsi təşkil etdiyi, Ermənistan və Azərbaycan üzrə həmməruzəçilərin münaqişənin sülh yolu ilə həllinə çağırışlar etdiyi qeyd olunur. Qətnamənin 11-ci bəndində isə bu fikirlər yer alıb: "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq, Assambleya bütün tərəfləri siyasi dialoqa mane olan iltihablı ritorikadan çəkinməyə, Ermənistanı və Azərbaycanı üçtərəfli bəyanatın humanitar məsələlərlə bağlı müddəalarını ən qısa müddətdə həyata keçirməyə, bütün tərəfləri dərhal hərbi əsirlərin və cəsədlərin mübadiləsini həyata keçirməyə, mədəni irsə hörmət etməyə çağırır və Monitorinq Komitəsini parlament səviyyəsində sülh prosesi üçün əlverişli bir atmosferə töhfə vermək üçün yolları araşdırmağa dəvət edir. Assambleya bu münaqişə zamanı bütün tərəflərin humanitar və insan hüquqları qanunlarını pozduğuna dair məlumat və iddialar, bəzi dini yerlərin və abidələrin deqradasiyası, eləcə də xüsusi mülkiyyətin dağıdılması iddialarından ciddi narahatlığını ifadə edir, bu məlumatların tam araşdırılmasını və pozuntuların aradan qaldırılmasını, günahkarların mühakimə olunmasını gözləyir".

Qeyd olunub ki, Ermənistanın AŞPA-dakı nümayəndə heyətinin sözügedən qətnamə layihəsinə əsassız düzəlişlər irəli sürmək cəhdləri uğursuzluqla nəticələnib. Ermənistan tərəfinin düzəlişləri həm Monitorinq Komitəsi, həm də Assambleyanın plenarı tərəfindən rədd edilib.

Bundan başqa, Ermənistan nümayəndə heyəti sessiya çərçivəsində cari məsələlər üzrə debat proseduru əsasında "Avropa Beynəlxalq İnsan Hüquqları Standartlarının pozulması kimi Azərbaycan hakimiyyət orqanları tərəfindən erməni əsirlər və digər saxlanılan şəxslərin qaytarılmasının əsassız olaraq gecikdirilməsi" mövzusunda müzakirənin keçirilməsini istəyib. Bu xüsusda, Azərbaycan nümayəndə heyəti tərəfindən AŞPA prezidentinə məktub ünvanlanaraq məsələ üzrə mövqeyimiz onun diqqətinə çatdırılıb və belə bir debatın keçirilməsinin məqbul olmadığı vurğulanıb. Nəticə etibarilə, qurumun Bürosu tərəfindən bu mövzuda debatın keçirilməsi məqsədəuyğun hesab edilməyib.

Eyni zamanda, vurğulanıb ki, yanvarın 25-də Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç qış yarımsessiyasında AŞPA üzvləri qarşısında çıxışında təşkilatın mövqeyini bir daha ifadə edərək Ermənistan ilə Azərbaycan arasında imzalanmış 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatı alqışladıqlarını söyləyib. O, Avropa Şurasının səlahiyyətləri çərçivəsində hər iki ölkəyə postkonflikt dövründə dəstək verməyə hazır olduqlarını və bu məqsədlə tərəflərlə məsləhətləşmə apardıqlarını bildirib.

# Azərbaycan-İran əlaqələri: dost və qardaş münasibətləri

*Prezident İlham Əliyev: "Azad edilmiş ərazilərin yenidən qurulmasında İran şirkətlərini görməyə çox şad olarıq"*

**Sevindirici haldır ki, bu gün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin qonşu dövlətlərlə monolit birliyə malikdir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplmatik siyasətinin reallığıdır.**

Məhz İkinci Vətən Müharibəsinin 44 gün ərzində 30 il işğalçı Ermənistandan azad olunan torpaqlarımız müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın dövlət başçısına olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, Türkiyə kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması və onun atdığı istənilən addımı müdafiə etməsi, həmçinin dost Pakistan dövlətinin ölkəmizə kömək etməyə hazır olduğunu bəyan etməsi, həmçinin qonşu dövlətlər - Rusiya, İran və Gürcüstanın və digər tərəfdaş dövlətlərin haqq işimizi müdafiə etməsi Ali baş Komandanımız, Prezident İlham Əliyevin son 17 illik Prezidentlik fəaliyyətinin göstəricisidir.

Elə yanvarın 25-də İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifinin Qələbədən sonra ölkəmizə gəlişi bir daha İranın dost, qardaş ölkə olduğunu bir daha sübut edir.

Görüşdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları ölkələrimiz arasında əməkdaşlığın səviyyəsindən çox məmnun olduğunu bildirib: "İl artıq başlayıb və mən planlarımızı müzakirə etmək, görülmüş işlərə yenidən nəzər salmaq üçün sizi Azərbaycanda qəbul etməyə şadam. Biz ölkələrimiz arasında əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Bildiyiniz kimi, biz çoxsaylı - prezidentlər səviyyəsində 10-dan çox, eləcə də digər yüksək rütbəli rəsmilər səviyyəsində görüşlər keçirmişik. Bu



görüşlərin hamısı çox səmərəli olub".

### "Biz planlaşdırdığımız bütün işləri həyata keçirmişik"

"Biz planlaşdırdığımız bütün işləri həyata keçirmişik. Biz son bir neçə ildə iki qardaş ölkənin çox yaxın olduğu siyasi sahədə, iqtisadi sahədə, nəqliyyat, enerji sahələrində çox yaxşı nəticələr görürük",-deyən dövlət başçısı onu da vurğulayıb ki, ölkəmizdə bütün layihələr uğurla inkişaf edir: "Bizim bu gün diqqətimizdə olan Şimal-Cənub nəqliyyat dəhlizi kimi bütün layihələr, enerji infrastrukturu ilə bağlı layihələr uğurla inkişaf edir. Şimal-Cənub nəqliyyat dəhlizi işləyir. Mənə indicə məlumat verilib ki, ötən il yükdaşımaların həcmi demək olar ki, 20 faiz artıb. Bu, çox müsbət nailiyyətdir. Baxmayaraq ki, onu tam şəkildə başa çatdırmamışıq, biz bu istiqamətdə hərəkət edirik".

"Regionda yeni vəziyyətlə əlaqədar yeni imkanlar, sözsüz ki, özəl investorlar, həmçinin dövlət qurumları üçün əməkdaşlığa geniş qapılar açır. Hazırda yeni nəqliyyat əlaqələri müzakirə mərhələsindədir və sözsüz ki, bizim Xudafərin su anbarı ilə bağlı əməkdaşlığımız və elektrik stansiyasının tikintisi ilə əlaqədar gələcək planlar artıq çox aktiv fazadadır. Ümidvaram ki, qarşıdakı bir neçə ildə bu layihəni tamamlaya və hər iki tərəfi yeni elektrik enerjisi istehsalı ilə təmin edə biləcəyik",-deyən dövlət başçısı onu da bildirib ki, digər layihələrin də həyata keçirilməsinə nail olacağıq: "Həmçinin, bizim bir neçə il əvvəl yüksək səviyyədə razılaşdırdığımız layihə - Ordubad və Marazad elektrik stansiyaları ilə bağlı işlər uğurla gedir. Beləliklə, bizim geniş gündəliyimiz var. Bundan əlavə, ümidvaram ki, tezliklə çay üzərindən yeni körpünün təməlqoyma mərasimi keçiriləcək və bir çox digər məsələlər".

### "Əlbəttə ki, biz işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq"

Görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyev dost ölkə olaraq hələ çox məsələlərin müzakirə olunacağını bildirib: "Bizim müzakirə edəcəyimiz çox məsələlər var. Mən, ilk növbədə, ikitərəfli əlaqələrimizi, onların səviyyəsini, inkişaf tempini, nailiyyətləri və yeni planları yüksək qiymətləndirdiyimi bildirmək istərdim. Əlbəttə ki, biz işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq. Bu, təbiidir, çünki dediyim kimi, yalnız dost ölkələr bizim tərəfdaşımız olacaq. Sözsüz ki, İran şirkətlərinin bizə yaxın yerləşməsi, logistika və böyük təcrübə kimi üstünlükləri var. Beləliklə, cənab Nazir, bir daha xoş gəlmisiniz".

Prezident İlham Əliyev, həmçinin İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifin diqqətinə onu da çatdırıb ki, Xudafərin sərhədi dostluq sərhədi adlandırıb: "Bildiyiniz kimi, mən Xudafərin ərazisinə səfər edərkən həmin sərhədi dostluq sərhədi adlandırdım. Bu, məhz dost və qardaş xalqların sərhədidir".

***RƏFİQƏ KAMALQIZI***

## XİN: Ermənistanın AŞPA-dakı nümayəndə heyətinin qurumun qətnamə layihəsinə əsassız düzəlişlər etmək cəhdləri uğursuzluqla nəticələnib

**Yanvarın 26-da ATƏT PA-nın onlayn Büro iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda bir çox məsələlərlə yanaşı, qurumun fevralda Vyanada keçiriləcək qış sessiyasına hazırlıq işləri müzakirə edilib, qurumun yeni seçilmiş Baş katibi xanım Helga Şmidin ATƏT ərazisində mövcud münaqişələrin və digər çağırışların həlli ilə bağlı məruzəsi dinlənilib.**

İclasda çıxış edən ATƏT PA-nın vitse-prezidenti və Azərbaycanın bu qurumdakı nümayəndə heyətinin rəhbəri Azay Quliyev Qarabağ və Minsk qrupu ilə bağlı qaldırılan suallara aydınlıq gətirib. Dövlətimizin qəti mövqeyini ifadə edən Azay Quliyev bildirib ki, "Dağlıq Qarabağ münaqişəsi" adlı münaqişə artıq mövcud deyil və bu termin tarixdə qalıb. Bundan sonra ATƏT və onun institutları bu termini "diriltmək" əvəzinə, Ermənistan ilə Azərbaycan arasında daimi sülhün əldə olunmasına çalışsalar yaxşı olar.

ATƏT-in Minsk qrupunun həmsədrlik institutuna toxunan deputat qeyd edib ki, bu qurum mövcud olduğu 28 ildə münaqişənin həlli ilə bağlı heç bir uğura nail ola bilmədi. Azərbay-



can öz ərazi bütövlüyünü təkbaşına bərpa etdi. Həm 2020-ci il noyabrın 10-da, həm də 2021-ci il yanvarın 11-də üçtərəfli formatda qəbul olunan bəyanatların heç birində Minsk qrupunun rolu olmayıb. Bu bəyanatlar regionda davamlı sülhün və təhlükəsizliyin əldə olunması, ikitərəfli və çoxtərəfli əməkdaşlığın qurulması üçün yeni imkanlar yaradır. ATƏT-in Minsk qrupunun hazırladığı əvvəlki həll variantları öz aktuallığını itirib. Buna görə də həmsədrlik institutu yeni reallıqları qəbul etməli və onlarla hesablaşmalıdır.

ATƏT PA-nın vitse-prezidenti onu da vurğulayıb ki, əgər Minsk üçlüyü bir yerdə nəsə etmək istəyirsə, o zaman Ermənistanı regionda sülhə əməl etmək və qonşuları ilə dinc yanaşı yaşamaq üçün müvafiq addımlar atmağa sövq etsin.

## İqor Korotçenko: Ermənilər 30 ildir minalar düzüb və xəritəsini də vermir"



Rusiyanın nüfuzlu hərbi eksperti, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko, "Pravda" qəzetinə verdiyi şərhində Qarabağda minalanmış sahələrin təmizlənməsindəki çətinliklərdən danışıb. Ekspert deyib ki, bu çox ağır və çətin iş olduğu üçün minaların təmizlənməsində yardımın göstərilməsi ilə bağlı istənilən humanitar təşəbbüslər hazırda Azərbaycan üçün vacibdir. "Ermənilər yüzlərlə kvadrat kilometri keçilməz mina sahələrinə çeviriblər. Bu problemlə məşğul olmaq lazımdır! İrəvan minalanma xəritələrini nə Rusiya sülhməramlılarının, nə də Azərbaycanın əlinə ötürür. Bu şərtlərdə Azərbaycan istənilən ölkədən istənilən köməyi qəbul etməyə hazırdır. Rusiyalı sülhməramlıları da minalardan təmizlənmədə iştirak edir"- Korotçenko bildirib.

Ekspert bu prosesin uzun çəkə biləcəyini bildirib: "Ermənilər 30 ildir mina qoyur, orada yaşamaq mümkün deyil. Bu problemin həlli on illər çəkə bilər. Bu, Ermənistanın işğal olunmuş əraziyə münasibətdə siyasətinin humanitar miqyaslı problemidir".

***Elçin***

## Müəllimlər vaksinasiya olunacaq?

Müəllimlərin vaksinasiyası ilə bağlı heç bir məcburetmə halı yoxdur. SİA-nın məlumatına görə, Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cəsarət Valehov bildirib ki, ilkin olaraq yaşı 50-dən yuxarı olan müəllimlərin vaksinasiya



olunması tövsiyə edilir. Bakı, Abşeron və Sumqayıtda 16 min 698, bölgələrdə isə 32 min 657 müəllimin yaşı 50-dən yuxarıdır.

## Azərbaycan ilə Gürcüstan arasında regional təhlükəsizlik məsələləri müzakirə olunub

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev yanvarın 26-da bu ölkənin daxili işlər naziri Vaxtanq Qomelauri ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Gürcüstan arasında dostluq və strateji tərəfdaşlıq münasibətləri diqqət mərkəzində olub.

Söhbət zamanı regional təhlükəsizlik, iki ölkənin hüquq mühafizə orqanları arasında ikitərəfli və regional əməkdaşlıq, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə və bu sahədə birgə əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Regionda yeni imkanlar əməkdaşlığa geniş qapılar açır

**Dövlətimizin başçısı İlham Əliyev İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul edərkən bildirmişdir ki, işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq**

10 noyabr üçtərəfli razılaşmasına uyğun olaraq dekabrın 1-də Laçının qaytarılması sevincini xalqımıza çatdırarkən diqqəti Bəyanatın doqquzuncu bəndinə yönəldən dövlətimizin başçısı İlham Əliyev bildirmişdir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan vətəndaşlarının nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək: " Bu, bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda, yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir. Azərbaycan Türkiyə ilə birləşir. Rusiya, Azərbaycan, Türkiyə, İran və əgər istəsə, Ermənistan bu dəhlizə qoşula bilər." Regionda beştərəfli yeni əməkdaşlıq platformasının yaradıla biləcəyi xüsusi önə çəkilərək bu istək ifadə edilmişdir ki, bölgədə uzunmüddətli sülh olsun. Bu isə öz növbəsində əməkdaşlıqla təhlükəsizlik tədbirlərinin paralel şəkildə həyata keçirilməsini zərurətə çevirir. Azərbaycan daim əməkdaşlığa hazırdır.

Azərbaycan və Türkiyə prezidentlərinin 10 dekabr Zəfər paradından sonra keçirdikləri mətbuat konfransında da 6 ölkədən -Türkiyə, Azərbaycan, Rusiya, İran, Gürcüstan və Ermənistandan ibarət əməkdaşlıq formatının yaradılması ideyasının region üçün faydalı olacağı bildirilmişdi. Bunun ardınca yanvarın 11-də dövlətimizin başçısı İlham Əliyevin Rusiya prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya işgüzar səfəri çərçivəsində keçirilən üçtərəfli-Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistan baş naziri Nikol Paşinyanın görüşü zamanı 10 noyabr razılaşmasının ayrı-ayrı bəndlərinin icrası geniş müzakirə olunaraq sonda imzalanan birgə Bəyanatda nəqliyyat kommunikasiyalarının bərpası bir daha öz əksini tapmışdır. Qeyd edilmişdir ki, bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Qonşu ölkələr də regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar.

Ümumiyyətlə, qonşularla münasibətlərin qurulması hər bir ölkə üçün prioritet olmalıdır. Azərbaycanın öz qonşuları ilə çox möhkəm və qarşılıqlı maraqlar əsasında formalaşmış əlaqələri mövcuddur. Qonşu dövlətlərdən biri kimi İranla ölkəmizin münasibətləri dərin tarixi köklərə malikdir. Xalqlarımız əsrlər boyu bərabər yaşayıblar. Elmi, mənəvi, mədəni əlaqələr bu xalqları tarix boyu birləşdirib. Hazırda İran İslam Respublikasında 25 milyondan çox azərbaycanlı yaşayır.

Qeyd etdiyimiz kimi, Azərbaycanın xarici siyasətinin əsas məsələsi ikitərəfli və çoxtərəfli çərçivədə əlaqələrin qurulması və müxtəlif istiqamətlər üzrə inkişaf etdirilməsidir. Qonşu ölkələrlə əməkdaşlıq bu gün də prioritet məsələ kimi öndədir. Dövlətimizin başçısı İlham Əliyev İranın xarici işlər nazirini qəbul edərkən əlaqələrimizin bugünkü səviyyəsinə xüsusi diqqət yönəltmişdir. Bir mühüm məqamı nəzərə alsaq, Azərbaycanın xarici siyasətinin iki əsas məsələsi Xəzərin hüquqi statusu, eyni zamanda, 30 ildən artıq həllini gözləyən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz həllini tapıb, bölgədə yeni reallıqlar yaranıb, bu halda əməkdaşlıq əlaqələrinin daha da inkişafı üçün geniş imkanların mövcudluğunu geniş şərh etməyə ehtiyac yoxdur. Bu baxımdan ki, hazırkı dövrdə istər bu və ya digər ölkələrin rəsmilərinin qarşılıqlı səfərləri zamanı keçirilən görüşlərdə, istərsə də beynəlxalq əhəmiyyətli tədbirlərdə postmüharibə dövrünün reallıqlarından, hədəflərindən bəhs edilir. Onların gerçəkləşdirilməsi üçün dost, yaxın ölkələrin şirkətlərinin fəal iştirak edərək verə biləcəkləri töhfələr geniş müzakirə edilir. Qeyd edilən qəbulda da bu kimi məsələlərə xüsusi diqqət yönəldilmişdir.

Dövlətimizin başçısı İlham Əliyev İran-Azərbaycan əlaqələrinin müxtəlif istiqamətlər üzrə inkişafından bəhs edərkən bunu şərtləndirən amilləri açıqlayaraq bildirir ki, dostluq, qardaşlıq münasibətləri, eyni zamanda, tarixi əlaqələrimiz əməkdaşlığımızın möhkəmləndirilməsinə geniş yol açır. Güclü siyasi əlaqələrə əsaslanan, möhkəm tarixi və mədəni kökləri olan İran-Azərbaycan münasibətləri dünya üçün müsbət qonşuluq nümunəsidir. Son illərdə İranla Azərbaycan arasında imzalanmış önəmli sənədlər ikitərəfli əlaqələrin hərtərəfli inkişafına böyük təkan verir. İqtisadi əlaqələrin möhkəmlənməsi fonunda hər iki ölkə iqtisadiyyata investisiya qoyuluşunu təmin etmiş və bu sərmayə qoyuluşu tərəflərin maraqlarına xidmət edir.

"Biz ölkələrimiz arasında əməkdaşlığın səviyyəsindən çox məmnunuq" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirmişdir ki, prezidentlər səviyyəsində 10-dan çox, eyni zamanda, digər yüksək rütbəli rəsmilər səviyyəsində görüşlər keçirilib.



Planlaşdırılan bütün işlər görülüb. Bu gün diqqətdə olan Şimal-Cənub nəqliyyat dəhlizi kimi bütün layihələr, enerji infrastrukturu ilə bağlı layihələr uğurla həyata keçirilir. Ötən il yükdaşımaların həcmi 20 faiz artıb.

Ölkə Prezidenti bu mühüm məqamı da xüsusi qeyd etmişdir ki, regionda yeni vəziyyətlə əlaqədar yeni imkanlar özəl investorlar, həmçinin dövlət qurumları üçün əməkdaşlığa geniş qapılar açır: "Hazırda yeni nəqliyyat əlaqələri müzakirə mərhələsindədir və sözsüz ki, bizim Xudafərin su anbarı ilə bağlı əməkdaşlığımız və elektrik stansiyasının tikintisi ilə əlaqədar gələcək planlar artıq çox aktiv fazadadır. Ümidvaram ki, qarşıdakı bir neçə ildə bu layihəni tamamlaya və hər iki tərəfi yeni elektrik enerjisi istehsalı ilə təmin edə biləcəyik. Həmçinin bizim bir neçə il əvvəl yüksək səviyyədə razılaşdırdığımız layihə - Ordubad və Marazad elektrik stansiyaları ilə bağlı işlər uğurla gedir. Beləliklə, bizim geniş gündəliyimiz var. Bundan əlavə, ümidvaram ki, tezliklə çay üzərindən yeni körpünün təməlqoyma mərasimi keçiriləcək və bir çox digər məsələlər."

Bu gün ölkəmizin həyatında yeni dövr başlayıb. İşğaldan azad edilmiş ərazilərimizin bərpası ilə bağlı mühüm Tədbirlər Planı hazırlanıb. Dövlətimizin başçısı İlham Əliyev bu bərpa, quruculuq işlərin daha çox dost, qardaş ölkələrin şirkətlərinin cəlb ediləcəyini bildirib. İranın xarici işlər naziri ilə görüşdə də dövlətimizin başçısı bildirmişdir ki, biz işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq: "Bu, təbiidir, çünki dediyim kimi, yalnız dost ölkələr bizim tərəfdaşımız olacaq. Sözsüz ki, İran şirkətlərinin bizə yaxın yerləşməsi, logistika və böyük təcrübə kimi üstünlükləri var."

Hər zaman qeyd etdiyimiz kimi, qarşılıqlı səfərlər əlaqələrin inkişafında, əməkdaşlıqda yeni prioritetlərin müəyyənləşdirilməsində stimulverici amil rolunu oynayır. Yuxarıda da qeyd etdiyimiz kimi, Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Konvensiyanın imzalanması regional əməkdaşlığa böyük töhfədir. O da məlumdur ki, bu məsələnin uzun illər öz həllini tapmamasına səbəb sahilyanı dövlətlərin yanaşmalarında fərqlilik idi. İran neçə illər idi ki, Xəzər dənizində sərhədlərin yalnız bütün tərəflərin razılığı əsasında müəyyən olunmasını istəyirdi. Eyni vaxtda 90-cı illərin əvvəllərində Xəzər dənizinin dibinin və səthinin, o cümlədən mineral resurslarının birgə istifadə olunmasını təklif edirdi. Ən əsası Xəzər dənizinin tərəflər arasında 20 faiz üzrə bərabər bölüşdürülməsini tələb edirdi. Bu məsələdə İranla Türkmənistan eyni mövqedən çıxış edirdi.

Konvensiyanın siyasi və iqtisadi əhəmiyyətindən bəhs edərkən təbii ki, ilk növbədə bu mühüm hadisədə Azərbaycanın regional əməkdaşlığa verdiyi töhfələrin stimulverici amil rolunu oynadığını xüsusi qeyd etməliyik. İllər keçdikcə İran və Türkmənistanla aparılan danışıqlar mövqenin beynəlxalq hüquq normalarına uyğun formalaşmasına səbəb oldu. Ölkəmizin Xəzəryanı dövlətlərlə ikitərəfli əməkdaşlığının bugünkü səviyyəsi göz önündədir. Bu günlərdə Azərbaycan Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması da bunun təsdiqidir. Ötən yazımızda da qeyd etdiyimiz kimi, Memorandumun Azərbaycanın bu gün bölgədə və dünyada yaratdığı yeni reallıqlar fonunda perspektivləri, istər iki ölkə arasındakı münasibətlərə, istərsə də regional, həm də qlobal əməkdaşlığa verəcəyi töhfələr daha aydın görünür.

Cənab İlham Əliyevin hər zaman çıxışlarında yer alan bu fikrini xüsusi qeyd etməliyik ki, Azərbaycanın xarici siyasətində region dövlətləri ilə əməkdaşlıq xüsusi yer tutur. Son illərdə ölkəmizin regional əməkdaşlığa verdiyi davamlı töhfələr göz önündədir. Yeni əməkdaşlıq formatlarının təşəbbüsçüsü məhz Azərbaycandır. Xəzərin hüquqi statusu ilə bağlı imzalanan Konvensiya ilk növbədə Xəzər regionunda böyük həcmdə enerji ehtiyatlarının sərbəst istismarına və istifadəsinə, həmin ehtiyatların dünya bazarına daşınmasına, regionun enerji təhlükəsizliyinin, eyni zamanda burada dövlətlərin iqtisadi, siyasi maraqlarının təmin edilməsinə, bütövlükdə regionda sabitliyin və təhlükəsizliyin bərqərar olunmasına öz təsirini göstərir.

Bütün bunlar onu deməyə əsas verir ki, İranla Azərbaycan arasında indiyədək imzalanan hər bir sənəd xoş məram, etimad, qarşılıqlı ehtiram, müştərək mənafe və mehriban qonşuluq münasibətləri sayəsində gerçəkləşib, ədaqələrin inkişafına böyük töhfədir.

Bir əsas məqamı da qeyd edək ki, yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində də qonşu dövlət kimi İranın mövqeyi ölkəmiz üçün daim xüsusi əhəmiyyət kəsb edirdi. İran Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipi çərçivəsində həlli ilə bağlı Azərbaycanın haqlı mövqeyini daim dəstəkləyib. İran Prezidenti Həsən Ruhani bəyanatlarında daim bildirirdi ki, bizim üçün əhəmiyyətlidir ki, ölkələrin ərazi bütövlüyü və bölgənin coğrafiyası dəyişməməlidir.

Qeyd edək ki, iki ölkə arasında əməkdaşlıq beynəlxalq təşkilatlar çərçivəsində də uğurla davam edir.

İran və Azərbaycan BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində daim bir-birilərinə dəstək göstərirlər. Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olub, tolerant və multikultural cəmiyyətlərin formalaşmasına davamlı töhfələr vermək istəyini ortaya qoyub. Cənab İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi, həmçinin IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi də İslam həmrəyliyinə ölkəmizin verdiyi töhfələrin davamlı olması istəyindən qaynaqlanırdı. İslam Əməkdaşlıq Təşkilatı bu birliyin, həmrəyliyin daha da möhkəmləndirilməsində, ortaq mövqenin, yanaşmanın ortaya qoyulmasında əhəmiyyətli rol oynayır. İƏT-in Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamədə dövlətimizin mövqeyi dəstəklənib, Ermənistanın işğalçılıq siyasəti pislənib. Cənab İlham Əliyev daim münaqişənin həllində möhkəm hüquqi bazanın mövcudluğundan bəhs edərkən digər qurumlar kimi, İslam Əməkdaşlıq Təşkilatının da mövqeyini yüksək dəyərləndirmişdir.

İslam Əməkdaşlıq Təşkilatının üzvü olan Azərbaycan milli-mənəvi dəyərlərin dünya mədəniyyətinin inciləri ilə vəhdət halında qorunub saxlanılmasına, təbliğinə, Avropa və Asiya, xristian və müsəlman dünyası ilə əlaqələrin güclənməsinə ən böyük töhfə verən ölkədir. Xalqımızın milli-mənəvi və tarixi irsindən bəhrələnən Azərbaycanın ümumbəşəri ideyaların carçısına çevrilməsi bizim üçün qürur mənbəyidir. Bir sözlə, tolerantlıq və multikultural mədəniyyət hər bir dövləti gücləndirən və onun birliyini təmin edən amildir. Əvvəldə də qeyd etdiyimiz kimi, bu gün İran-Azərbaycan münasibətləri bu möhkəm tarix və mədəni köklər üzərində uğurla qurulur və inkişaf edir.

***Yeganə Əliyeva***

# Qarabağın dirçəlişi: Biz elə inkişaf modeli qurmalıyıq ki...

**Bütün xalqımızın arzusu idi ki, torpaqlarımız işğaldan azad olunsun və dağıdılmış şəhər və kəndlərimiz yenidən abadlaşdırılsın. Həmin gün gəlib çatdı. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, biz erməni işğalçıları tərəfindən xarabazara çevrilmiş yurdlarımızı gülüstana çevirəcəyik. Belə irimiqyaslı işlərin həyata keçirilməsi üçün artıq hazırlıq işləri başa çatmaqdadır. Türkiyə, İtaliya, İran, Pakistan şirkətləri ilə ilkin danışıqlar aparılaraq müvafiq razılaşmalar əldə olunub.**



Bugünlərdə Azərbaycana səfərə gələn İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif Prezident İlham Əliyevlə görüşü zamanı bildirib ki, energetika, yenidənqurma və geri dönəcək əhalinin normal yaşayışına vasitə ola biləcək kənd təsərrüfatı kimi sahələr bizim üçün prioritet təşkil edir və şirkətlərimiz işə başlamağa hazırdır: " Qeyd edilən layihələrə gəldikdə, bildirmək istəyirəm ki, biz Şimal-Cənub və Cənub-Qərb dəhlizləri çərçivəsində həmin sahələr üzrə işləmək arzusundayıq. Buraya elektrik enerjisinin istehsalı, energetika, "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları ilə bağlı əməkdaşlıq və digər məsələlər də aiddir. Çox şadıq ki, rəsmilərinizin İrana səfərləri zamanı bu layihələr üzrə sürətli irəliləyiş əldə olunmuşdur və artıq biz ölkələrimiz arasında daha uzun birgə dostluq sərhədinə sahib ola bilərik."

Dövlətimizin başçısı İlham Əliyev bildirib ki, işğaldan azad edilmiş ərazilərdə mövcud olan vəziyyətə uyğun müasir idarəetmə sistemi qurulmalıdır ki, orada hər şey planlı şəkildə təmin edilsin - şəhərsalma, dövlət orqanlarının funksiyaları: "...Azad edilmiş torpaqlarda hər şey demək olar ki, dağıdılıb. Ona görə biz elə bir inkişaf modeli qurmalıyıq ki, ondan sonra biz onu bütün başqa torpaqlara da, necə deyərlər, transfer edə bilək, mövcud qüsurlar aradan qalxsın və ölkəmizin uğurlu inkişafı təmin edilsin". Burada yeni iqtisadi modelin tətbiq edilməsi nəzərdə tutulur. Bununla bağlı dövlət başçısının Sumqayıt Kimya Sənaye Parkındakı çıxışında xüsusi qeydləri olub. Yeni iqtisadi model azad edilmiş torpaqlarda müasir standartlara uyğun infrastrukturun formalaşmasını özündə ehtiva edəcək. Artıq bu proses başlanıb.

Həmin ərazilərdə formalaşacaq infrastruktur beynəlxalq standartlara uyğun olacaq: Füzuli rayonunda beynəlxalq hava limanının inşasına, Füzuli-Şuşa şose yolunun çəkilməsinə başlanması, beynəlxalq standartlara uyğun olaraq kommunal xidmətlərin verilməsi və digər infrastrukturun genişləndirilməsi ilə bağlı aparılan fəaliyyətlər ondan xəbər verir. Bu da müasir standartlara uyğun olaraq azad edilmiş ərazilərimizdə kənd təsərrüfatının, iqtisadiyyatın formalaşmasına imkan verəcək. Eyni zamanda, burada yeni modelin tətbiq edilməsi nəzərdə tutulur. Bu model özündə vergi güzəştlərini, təşviq mexanizmlərini, o cümlədən xarici investisiyaların cəlbi üçün xüsusi zonaların yaradılmasını da ehtiva edir.

Nazirlər Kabinetinin Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri Feyruz Mustafayev "Anadolu" agentliyinə Qarabağın yenidən qurulması üçün müxtəlif ölkələrin bərpa təcrübəsini araşdırıldığını deyib: "Bizim üçün ən uyğun təcrübənin Türkiyə modeli olacağını düşünürük. Bu qənaətə qonşu ölkənin son 20 ildə tikinti sektorunda əldə etdiyi nailiyyətləri nəzərə alaraq gəldik". Məsələ ilə bağlı Türkiyənin Ətraf Mühit və Şəhərsalma Nazirliyinin səlahiyyətli şəxsləri ilə görüş keçirilib.

Şübhəsiz ki, Qarabağın bərpasında qardaş Türkiyə şirkətlərinə üstünlük veriləcək. Türkiyəli iş adamları azərbaycanlı həmkarları ilə birlikdə Qarabağı yenidən tikib-quracaqlar. Hazırda Füzulidən Şuşaya yeni yolun inşasında iki ölkənin şirkətləri birlikdə çalışırlar. Bu, ilk addımdır. Bundan sonra addımlar sürətlənəcək və erməni vandallarının viran qoyduqları ərazilərimiz əvvəlkindən də abad və gözəl görkəmə salınacaqdır. Bunun üçün dövlətimiz qadir əllərə və hər cür imkana malikdir.

***Vəli İlyasov***

## "Yeni tərəfdaşlıq konfiqurasiyasında yerləri və rolları Azərbaycan təyin edir"



"Azərbaycan-İran münasibətləri ənənəvi olaraq regionda dostluq və əməkdaşlıq münasibətləri kimi qiymətləndirilib və qarşılıqlı maraqlara söykənən tərəfdaşlığa əsaslanıb. Yanvarın 25-də İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifin Azərbaycana səfəri zamanı Vətən müharibəsində əldə etdiyimiz qələbə münasibətilə səsləndirdiyi təbrik sözləri də bir daha bu dostluq və tərəfadaşlığın təzahürü kimi qiymətləndirilməlidir. İranın xarici işlər naziri Azərbaycanın qələbəsi nəticəsində regionda yaranmış yeni geosiyasi və geoiqtisadi reallığı region dövlətləri arasında dinc və normal münasibətlərin başlanğıcı kimi dəyərləndirdi. Beləliklə də əslində səfərinin məqsədlərini dilə gətirmiş oldu. Doğurdan da Məhəmməd Cavad Zərif yeni reallığı yeni başlanğıc kimi qiymətləndirməkdə haqlı idi. Çünki məhz yeni reallıq regionun iqtisadi-siyasi və mədəni-humanitar potensialının tam gerçəkləşdirilməsi üçün perespektivlər açır". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, bütün bunlar isə ilk növbədə kommunikasiyaların bərpası və yeni nəqliyyat və enerji kommunikasiyalarının yaradılmasından keçir: "Hazırda Azərbaycan bu istiqamətdə olduqca sürətli və strateji həmlələr edir. Qısa müddətdə bunlar öz bəhrəsini verəcək və bu prosesdə regional inteqrasiyadan kənar qalmamaq üçün ölkəmizin həyata keçirdiyi layihə və tərəfdaşlıq platformalarına maraq get-gedə artır. Bu isə o deməkdir ki, yeni regional tərəfdaşlıq konfiqurasiyasında yerləri və rolları Azərbaycan təyin edir. Ona görə də İranın xarici işlər Naziri məhz bu məsələdən danışarkən Azərbaycan Prezidentinin bildirdiyi 3+3 formatına istinad edərək digər ölkələrə də səfər edəcəyini, dolayısı ilə yeni formatda fəal iştirakçı olmaq niyyətini ifadə etdi. Ancaq özünəməxsus tərzdə yeni formatı yeni 5+1 platforması kimi təsvir etməklə İranı Azərbaycana daha yaxın gördüyünü diplomatik kombinasiya ilə bildirmiş oldu. Çünki 3+3 tərəfdaşlıq düsturu açılarkən politoloqlar adətən birinci üçlükdə Türkiyə-Azərbaycan- Gürcüstanı, ikinci üçlükdə isə Rusiya-İran-Ermənistanı təsvir edirdilər".

H.Babaoğlu vurğulayıb ki, görünür Zərifin çoxkombinasiyalı 5+1 (İran) formatı təsviri də həm İranın birinci üçlükdə müəyyənləşdirilməsinə passiv etirazı, həm də əslində digər 5 ölkə ilə eyni dərəcədə məsafədə olmasına işarəsi idi: "Ancaq nəticə etibarilə söhbət yeni altıtərəfəli əməkdaşlıq platformasından getdiyi üçün bu platformanı necə kombinə etməyin o qədər də əhəmiyyəti qalmır. Ona görə də daha praqmatik yanaşdıqda aydın olur ki, İran bu əməkdaşlıqda mühüm ölkələrdən biri ola bilər. Çünki hər şeydən öncə İran və Azərbaycan arasında siyasi münasibətlərin yüksək səviyyədə olması buna imkan verir. İkincisi iki ölkə arasında bu tərəfdaşlığı daha da güclü edə biləcək bir sıra layihələr artıq əvvəlki reallıqlar çərçivəsində indiyədək öz əksini tapmaqla yeni reallıqlar üçün də yaxşı baza rolunu oynaya bilər. Məsələn elə görüşdə adları çəkilən, Xudafərin və Qız Qalası hidroqovşaqlarının tikintisi, Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı görülən işlər, 2021-ci ilin sonunadək bu yolun Azərbaycandan keçən hissəsinin inşasının başa çatdırılması imkanları kimi məsələlər buna əyani sübutdur".

***Aysel Məmmədova***

## Rusiyaya pomidor ixracı müzakirə edilib



Azərbaycandan Rusiya Federasiyasına ixrac olunan pomidor və alma məhsullarına tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılması istiqamətində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) aidiyyəti qurumlarla birgə zəruri tədbirləri davam etdirir.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, yanvarın 26-da AQTA sədri Qoşqar Təhməzlinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin ("Rosselxoznadzor") sədr müavini Yuliya Şvabauskenenin başçılıq etdiyi nümayəndə heyətləri arasında videokonfrans formatında növbəti görüş keçirilib. Görüş zamanı Azərbaycandan Rusiya Federasiyasına ixrac olunan pomidor və alma məhsullarına tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılması istiqamətində görüləcək işlər müzakirə olunub.

Ölkəmizdən ixrac olunan bitkiçilik məhsulları üzərində həyata keçirilən təhlükəsizlik tədbirləri ilə bağlı məlumat verən AQTA sədri hər iki qurumun mütəxəssislərinin iştirakı ilə aparılan birgə monitorinqlərin məsələnin həlli istiqamətində əhəmiyyətini diqqətə çatdırıb.

Rusiya Federasiyasının Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin sədr müavini Yuliya Şvabauskene həyata keçirilən birgə nəzarət tədbirlərini yüksək qiymətləndirib və bu istiqamətdə birgə əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb. Görüşdə iki ölkə arasında qida məhsulları, xüsusilə bitkiçilik məhsulları sahəsində ticarət dövriyyəsinin artırılması sahəsində fikir mübadiləsi aparılıb.

# İşğaldan azad edilmiş ərazilərdə torpaq islahatları aparılacaq

**30 illik həsrəti bitən və artıq məcburi köçkün statusu daşımayan vətəndaşlarımız indi də torpaqlarına qovuşacağı günü səbrsizliklə gözləyirlər.**

Bununla əlaqədar olaraq işğaldan azad edilmiş ərazilərdə torpaq islahatının həyata keçirilməsi üçün yeni mexanizmlər hazırlanır. Bununla da kimə nə qədər torpaq sahəsi düşəcəyi müəyyən ediləcək.

İşğaldan azad edilmiş ərazilərdə torpaq islahatının aparılması üçün yeni mexanizm və meyarlar hazırlanmalıdır. 1996-cı ildən sonra torpaq islahatı həyata keçirildiyi üçün bununla bağlı artıq təcrübəmiz var. Ona görə də bizim üçün çətin olmayacaq. Amma bu ərazilər dəqiq müəyyən olunmalı, daha sonra həm əhalinin sayına, həm də torpaqların miqdarına görə bölgü aparılmalıdır. Çünki bu gün elə rayonlar var ki, orda əhali çoxdur və onlara torpaq sahələri az düşür.

Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev bildirib ki, sənədləri olan məcburi köçkünlər həmin sənədlər əsasında torpağa sahib ola biləcəklər. Sənədləri olmayanlar isə müvafiq qurumlara müraciət etməlidir.

Tahir Rzayev əlavə edib ki, torpaqlarında müəyyən müəssisələr tikilən vətəndaşlar isə başqa torpaq sahəsi ilə təmin ediləcək. Çünki ermənilər tərəfindən tikilən bəzi müəssisələr dövlətimiz üçün yararlıdırsa bu zaman ondan istifadə ediləcək. Əvəzində isə həmin vətəndaşa onun razılığı ilə istənilən yerdə torpaq veriləcək.

Millət vəkili qeyd edib ki, 30 il ərzində torpaqlararımız düşmən tərəfindən pis hala salınıb, demək olar ki, müəyyən bir hissəsi əkilib becərilib. Lakin buna baxmayaraq həmin ərazilərdə artıq ifrastruktur layihələri həyata keçirilir. Torpaqların minadan təmizlənməsi, bu ərazilərdə gələcəkdə hansı tədbirlərin hansı qaydada həyata keçirilməsi müəyyənləşdirilir. Ona görə də torpaq bölgüsünün nə vaxta həyata keçiriləcəyi və baş çatacağı hələ ki dəqiq deyil.



## Bakıda qadının intiharı ilə bağlı araşdırma başlanıb

Bakıda qadının intiharı ilə bağlı araşdırmalar başlanıb. "İki sahil" xəbər verir ki, hadisə yanvarın 26-da saat 17 radələrində paytaxtın Binəqədi rayonu ərazisində baş verib. Rayon sakini 1983-cü il təvəllüdlü Məmmədzadə Səbinə Adil qızı yaşadığı Binəqədi rayonu, S.S.Axundov küçəsində yerləşən hündürmərtəbəli binanın 6-cı mərtəbəsindən özünü ataraq intihar edib. Fakt üzrə hazırda Binəqədi rayon prokurorluğu tərəfindən araşdırmalar davam etdirilir.



# “Ermənilərin xəmiri təxribatla yoğrulub”

## Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir



***- Elşən müəllim, Ermənistan yenidən aranı qarışdırmaq və Qarabağda müəyyən yerlərədə təxribatlar törətməyi planlaşdırır. Sizcə, bu nədən irəli gəlir?***

- Mən bir dəfə də bu fikri söyləmişdim və yenidən təkrar etmək istəyirəm: Ermənilərin xəmiri təxribatla yoğrulub, təxribat onların canındadır, qanındadır və naqis düşmən əsrlər boyunca, üstəlik müxtəlif mərhələlərdə bu təxribatları həyata keçirib. İndi də xislətlərinə, xarakterlərinə uyğun olaraq yenidən həmin cəhdləri edirlər. Amma cavablarını da alırlar. Yəni, erməni bundan sonra heç bir zaman törətdiyi təxribatlarla arzuladığı nəticəyə vara bilməyəcək. Niyə? Birincisi, 44 günlük müharibədə onlar başı üzərində Azərbaycanın dəmir yumruğunu gördü, məhv oldu, kapitulyasiya aktını imzaladı. İkincisi, Ermənistanın hazırda başı özünə qarışıb. Ölkədə çox ciddi siyasi və iqtisadi gərginlik var. Nə baş nazir nə də hökumət vəziyyəti idarə edəcək imkanda, gücdə deyil. Ağız deyəni qulaq eşitmir, xalqla hakimiyyət arasında bağ, təmas itib. Hətta xaotik durum o həddə qədər irəliləyib ki, artıq heç bir kadr dəyişikliyi, heç bir populist vəd, heç bir addım Paşinyanın və komandasının köməyinə gəlmir, dadına yetmir. Bunun isə öz səbəbləri var. Əvvəla, Ermənistan heç bir zaman müstəqil olmayıb, müstəqil siyasət yürütməyib. Onun-bunun cibində, ovcunda gizlənənlərin, kiminsə ağzı və dili ilə danışanların isə aqibəti hər zaman belə nəticə ilə sonuclanır. Digər məqam: 30 ilə yaxın müddətdə Azərbaycanın əzəli torpaqlarını işğal altında saxlayan Ermənistan əslində bununla bütün regional layihələrdən özünü faktiki təcrid edib, öz iqtisadi uğursuzluğunun, öz siyasi bədbəxtliyinin əsasını qoyub. Yəni, bu dövlət məhz işğalçı damğasını öz üstündə gəzdirdiyinə görə bütün qapıların kandarında qalıb, bütün dünyanın nifrətini qazanıb. Bu gün də xislətinə, yanlış siyasətinə, terrorçu və təxribatçı əməllərinə görə cavab verir: həm işğal elədiyi torpaqlardan rədd olub, müharibəni uduzub, kapitulyasiya aktını imzalayıb, həm də iqtisadi və siyasi çöküş prosesi ilə baş-başa qalıb. Üstəlik, bu proses get-gedə dərinləşir. Xaos daha da irəliləyir və əgər Ermənistan bu xaosun ardınca Dağlıq Qarabağda da təxribatlar törətməyə çalışsa yalnız öz vəziyyətini gərginləşdirəcək, özünə ziyan edəcək. Azərbaycan dövləti və Azərbaycanın müzəffər ordusu bütün təxribatların qarşısını almağa qadirdir.

***- Bu günlər Ermənistan Təhlükəsizlik Şurasının iclası keçirilib və iclasa A.Artunyanda qoşulub. Sizcə, terrorçubaşı A.Arutunyanın Təhlükəsizlik Şurasının iclasında iştirak etməsi nədən irəli gəlir?***

- Arutunyan o qədər bədbəxt bir adamdır ki, onun varlığı və yoxluğu heç bir mərhələdə bilinməyib. Müharibə dövründə də haralardasa gizləndi və kapitulyasiya aktı imzalanandan sonra üzə çıxdı. İndi də məqsədsiz və məramsız formada onun-bunun masasında, süfrəsində, yanında peyda olur. Arutunyan terrorçudur, qatildir, canidir. Ona qarşı cinayət işi qaldırılıb. Paşinyan həmin canini nə qədər yanında oturdacaqsa, saxlayacaqsa özünü də bir o qədər daha çox məhvə doğru aparacaq. Hərçənd ikisi də eyni xislətdədir və bir-biri ilə həmxasiyyətdir.

***- Ermənistada bəzi revanşist qüvvələr meydana çıxıb və yenidən Qarabağda müharibə çağrışı ilə çıxış edirlər. Buna münasibətiniz?***

- Revanş dövrü ötüb. Artıq Dağlıq Qarabağ öz əzəli sahibindədir. 44 günlük Vətən Müharibəsində Azərbaycan əsgəri böyük əzm, qətiyyət göstərdi və Ali Baş Komandanın rəhbərliyi ilə əzəli torpaqlarımız işğaldan azad olundu. Bu, həqiqətən möhtəşəm uğurdur, qəhrəmanlıq səlnaməsidir, şanlı tarixdir. Artıq erməni vandalları cəzalarını alıblar, onlar kapitulyasiya aktına imza atıblar, öz məğlubiyyətlərini etiraf ediblər. Düzdür, aralarında hələ də bəzi romantiklər qalır və onlar da ümid edirlər ki, nə vaxtsa revanş götürə bilərlər. Amma həmin adamlar xəyalpərəstlərdir. Bu mümkün olmayacaq. Azərbaycanın mübariz, müzəffər ordusu bundan sonra əsla və əsla imkan verməz ki, hansısa erməni təxribatçısı və ya terrorçusu bizim torpaqlara göz dikə bilsin. Əgər erməni belə bir iddiaya düşsə, növbəti dəfə başı əziləcək, növbəti dəfə başı üzərində dəmir yumruğu görəcək. Ermənistan bundan sonra 40-50 il də güclənsə yenə Azərbaycanın qəhrəman ordusunun qarşısında duruş gətirə bilməz. Biz 44 gün ərzində onlara elə dərs vermişik ki, həmin dərsi ermənilər heç vaxt unutmayacaq.

***Gülyana***

# Musa Quliyev: “Qarabağın dirçəlişində hamımız fəal iştirak etməliyik”



“Qarşımızda dayanan əsas vəzifə işğaldan azad olunmuş torpaqlarımızın abadlaşdırılması, orada infrastrukturun yenidən qurulması, bu torpaqların cənnətə çevrilməsidir. Biz görəcəyimiz işlərlə bir daha dünyaya sübut etməliyik ki, bu torpaqların əsl sahibi bizik”.

SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib. Musa Quliyev bildirib ki, ermənilər 30 il ərzində cənnət olan bu torpaqları cəhənnəmə çeviriblər. Orada daşı-daş üstündə qoymayıblar. Biz müqayisəli şəkildə dünyaya göstərməliyik ki, torpağın əsl sahibi kimdir, torpağı işğal altında saxlayan, oranı talan edən, dağıdan kimdir.

Komitə sədrinin sözlərinə görə, Qarabağın yenidən qurulması prosesində hər birimizin iştirak etməyimiz vacibdir. Hər bir Azərbaycan vətəndaşı, o cümlədən başqa ölkələrdə yaşayan soydaşlarımız, habelə Azərbaycana dost olan insanlar bu prosesdə iştirak etməlidir. Məhz hər kəsin bu prosesdə iştirakını təmin etmək üçün Qarabağ Dirçəliş Fondu yaradıldı.

“Qarabağ Dirçəliş Fondunun yardılmasında məqsəd vətəndaş-dövlət münasibətlərini inkişaf etdirmək, bunu daha ali mərtəbəyə yüksəltməkdir. Vətəndaşlar dövlətin bu siyasətində aktiv şəkildə iştirak etməli, bu müqəddəs işə öz töhfəsini verməlidir. Heç şübhəsiz ki, Qarabağ Dirçəliş Fondu bütün vətəndaşlara imkan yaradacaq ki, proseslərdə yaxından iştirak etsin. Qarabağ Dirçəliş Fondunun yaradılmasının digər bir önəmi Qarabağdakı abadlıq, quruculuq prosesinə töhfə vermək istəyən şəxslərin fəaliyyətini vahid mərkəzdən idarə etməyə imkan verəcək. Bu fond uzun illər fəaliyyət göstərəcək və bu illər ərzində Qarabağın abadlaşdırılmasına töhfə verəcək”,-deyə komitə sədri vurğulayıb.

# Erməni iqtisadçıdan etiraf: Ermənistan iqtisadi kollabsdadır



“Bu gün ölkə iqtisadi cəhətdən zəlil gündədir, epidemiya və müharibənin səbəb olduğu əhalinin sosial problemləri daha da kəskinləşib. Ticarət və cəmiyyətdəki bir çox qeyri-müəyyənlik meydana mənfi gözləntilər gətirib və bu da Ermənistanda iqtisadi böhranı daha da dərinləşdirib”. SİA erməni mətbuatına istinadən bildirir ki, bu fikirləri bəyan edən erməni iqtisadçı Karlen Xaçatryan hökumətin belə bir şəraitdə passivliyinə təəccübünü belə gizlətmir. Əslində, burada təəccüblü elə də bir şey yoxdur. Daha çox xarici ianələr hesabına ayaqda duruş gətirən Ermənistanın 2021-ci il üçün dövlət büdcəsində elə bir dəyişikliyin olmaması, 2020-ci ilin büdcəsindən elə də fərqlənməməsi də başadüşüləndir.

Qeyd edilməlidir ki, erməni iqtisadçı fərqin, sadəcə olaraq, təkcə ölkənin borc yükündə olduğunu bildirir. Belə ki, Xaçatryanın etirafına görə, dövlət borcunun idarə edilməsinə çəkilən xərclər, təxminən, 27 milyard dram artsa da, ölkənin ayrı-ayrı sahələrinə ayrılan vəsaitlərdə azalmalar daha çox müşahidə edilməkdədir. Maraqlıdır ki, bu gün rəzil Ermənistanda toxunulmaz fond kimi təkcə Paşinyanın səxavətlə öz əyanlarına payladığı mükafat fondları dəyişməyib.

Məhz bunları əsas kimi gətirən erməni iqtisadçı sual edir: 2021-ci il dövlət büdcəsi iqtisadiyyatda mövcud olan həqiqətləri əks etdirirmi? Yəni bu büdcə ilə ölkəni düşdüyü dərin iqtisadi böhrandan xilas etmək mümkün olacaqmı? Təbii ki, yox! Qeyd edilməlidir ki, bu, təkcə erməni iqtisadçının gəldiyi qənaət deyil. Beləliklə, hazırda Ermənistandakı vəziyyəti dəyişdirmək və iqtisadiyyata sıçrayış etmək üçün hakim siyasi komandanın heç bir potensialının olmadığını etiraf edən Xaçatryan, əslində, erməni rəhbərliyinin bunun üçün nə istəyinin, nə də elə bir potensialının olmadığını etiraf edir.

***Ağasəf Babayev***

# Malayziya qəzeti: Azərbaycan sülh, yaxşı qonşuluq və regional əməkdaşlığın qətiyyətli müdafiəçisidir

**Malayziyanın “Utusan Malaysia” qəzeti Azərbaycanın bu ölkədəki səfiri Qaley Allahverdiyevlə müsahibə əsasında geniş məqalə dərc edib. Yazı yanvarın 26-da qəzetin xarici xəbərlər üzrə peşəkar jurnalisti Taqib Şaker tərəfindən qələmə alınıb.**

AZƏRTAC xəbər verir ki, məqalədə səfir Q.Allahverdiyev Azərbaycan haqqında, o cümlədən ölkəmizin milli-mədəni, tarixi irsi, coğrafi-strateji önəmi və beynəlxalq regional enerji layihələrindəki əhəmiyyətli rolu barədə məlumat verərək, vaxtilə işğal altında qalmış Dağlıq Qarabağ regionu və ətraf ərazilərinin dünəni və bu günü barədə vacib məqamları malayziyalı oxucuların diqqətinə çatdırıb.



16 UTUSAN MALAYSIA SELASA • 26 JANUARI 2021

Rencana

THAQIB SHAKER

## Siapa pemilik sebenar Nagorno-Karabakh?

PADA September lalu, dunia dikejutkan dengan konflik bersenjata antara Azerbaijan dan Armenia yang berlangsung selama lebih sebulan di wilayah Nagorno-Karabakh. Konflik atau lebih tepatnya peperangan itu mengorbankan nyawa ribuan tentera dan orang awam di kedua-dua belah pihak.

Peperangan yang tercetus sewaktu Covid-19 melanda itu berpihak kepada Azerbaijan apabila mereka berjaya menguasai semula lima bandar dan 286 kampung sekali gus menamatkan 30 tahun penjajahan haram Armenia ke atas wilayah Azerbaijan.

Namun, saya yakin ramai dalam kalangan kita masih tidak memahami tentang pergolakan itu dan tertanya-tanya, siapa pemilik sebenar wilayah Nagorno-Karabakh?

Sebelum itu, kita perlu ketahui sedikit sejarah negara dua bernas ini. Azerbaijan merupakan sebuah negara yang majoriti penduduknya umat Islam. Terletak di selatan Kaukasus antara Eropah Timur dan Asia Barat. Republik yang mempunyai 10 juta penduduk itu bersempadan Laut Caspian, Rusia, Georgia, Armenia dan Iran. Sekalipun sekadar berkeluasan 86,000 kilometer persegi, namun ia mempunyai sejarah panjang dan pernah mendapat dua kali kemerdekaan pada 1918 dan 1991.

Konflik antara Armenia dan Azerbaijan seputar wilayah Nagorno-Karabakh bermula sejak lewat 1980 apabila Armenia mendakwa Karabakh sebagai wilayah mereka. Dakwaan tanpa fakta tersebut menyebabkan tercetusnya pertumpahan darah. Warga Azerbaijan yang berada di Armenia dan Karabakh dihalau keluar dalam skala besar. Bukan itu sahaja, Armenia melakukan pembunuhan beramai-ramai ke atas lebih 600 penduduk di Khojaly pada 26 Februari 1992.

MERDEKA

Armenia mengambil kesempatan ke atas Karabakh pada lewat 1991 dan awal 1992 ketika Azerbaijan masih baru merdeka dan berjuang untuk membangunkan negara mereka setelah berpisah daripada Kesatuan Soviet. Sejak itu, Armenia menakluki wilayah Karabakh secara haram meskipun pihak antarabangsa dengan jelas memasukkan wilayah bergolak itu ke dalam peta Azerbaijan. Konflik yang tidak sepatutnya berlaku itu menyebabkan kira-kira sejuta warga Azerbaijan menjadi pelarian, lebih 20,000 terbunuh, 50,000 cedera atau cacat dan 4,000 orang hilang tanpa diketahui nasib mereka.

Kerajaan Malaysia merupakan antara negara terawal menunjukkan reaksi sewaktu peperangan Karabakh yang berlaku baru-baru ini dan Azerbaijan sangat menghargai pendirian Kuala Lumpur yang adil selama konflik tersebut berlangsung. Kerajaan Malaysia juga menyokong empat resolusi Pertubuhan Bangsa-Bangsa Bersatu (PBB) ketika konflik sedang berlangsung dengan menegaskan integriti wilayah Azerbaijan. Bahkan sokongan Malaysia turut dikontarkan dalam forum-forum antarabangsa besar dunia seperti di Pertubuhan Negara-Negara Berkecuali (NAM) dan Pertubuhan Kerjasama Islam (OIC).

Sebaik sahaja peperangan tamat pada 10 November lalu, Turki dan Rusia menghantar pasukan tentera pengaman mereka ke Karabakh bagi memastikan keamanan.

GAMBARAN

Baru-baru ini, saya menemu bual Duta Besar Republik Azerbaijan di Malaysia, Dr. Qaley Allahverdiyev bagi mendapatkan gambaran sebenar.

"Pertama sekali, saya perlu memaklumkan bahawa menjaga hubungan baik dengan negara-negara jiran merupakan salah satu perkara terpenting dalam polisi hubungan luar kami.

"Azerbaijan menikmati hubungan yang akrab dengan Turki dan Rusia. Kedua-dua negara ini turut menjadi rakan utama Azerbaijan sejak dari dahulu lagi," katanya ketika ditemui di pejabatnya di Kuala Lumpur.

Sejak dari awal peperangan meletus, Presiden Azerbaijan, Ilham Aliyev beberapa kali menyatakan dengan jelas, konflik akan berakhir sekiranya Armenia meninggalkan wilayah Azerbaijan yang ditakluki mereka tanpa sebarang syarat. Pada 9 November lalu, Presiden Azerbaijan, Presiden Rusia dan Perdana Menteri Armenia menandatangani perjanjian gencatan senjata Nagorno-Karabakh berkuat kuasa 10 November 2020.

Sekalipun perdamaian termeterai, namun masih terdapat saki-baki tentera Armenia bersembunyi di dalam hutan di wilayah Azerbaijan dengan niat untuk melakukan sabotaj dan provokasi. Namun, operasi antipengganas yang dilancarkan Azerbaijan berjaya menghalang niat jahat mereka. Kini, Azerbaijan sedang bertungkus lumus membersihkan kawasan mereka daripada periuk api yang ditanam di merata tempat dan membina semula segala infrastruktur yang telah musnah.

Rakyat Malaysia perlu peka dengan konflik ini kerana ia melibatkan integriti dan penjajahan haram ke atas wilayah berdaulat. Armenia begitu agresif dalam mengeluarkan propaganda jahat untuk menghalalkan tindakan mereka ke atas Azerbaijan sekalipun mereka tahu Azerbaijan mempunyai hak yang jelas menurut perspektif undang-undang antarabangsa. Menerusi prinsip undang-undang antarabangsa, uti possidetis juris, semua negara baharu yang keluar dari Kesatuan Soviet berhak mendapatkan semula bekas wilayah mereka.

Resolusi 822, 853, 874 dan 884 Majlis Keselamatan PBB dengan jelas menyatakan, wilayah Nagorno-Karabakh sebagai sebahagian daripada Azerbaijan, bahkan hakikat tersebut turut terdapat dalam dokumen-dokumen rasmi pertubuhan antarabangsa dunia seperti Majlis Eropah dan NAM.

"Sebagai wakil kepada kerajaan Azerbaijan, saya menjemput semua syarikat Malaysia untuk turut serta dalam projek-projek pembangunan semula di wilayah Azerbaijan kami," katanya mengakhiri perbualan.

PENULIS ialah pengkaji hubungan Malaysia dan dunia luar

PRESIDEN Azerbaijan, Ilham Aliyev mengucup bendera negaranya yang dikibarkan di Susha selepas pasukan tenteranya berjaya menguasai semula bandar itu daripada Armenia, baru-baru ini.

"Azerbaijan sangat menghargai pendirian Kuala Lumpur yang adil selama konflik tersebut berlangsung."

PERBARISAN sempena kejayaan pasukan tentera Azerbaijan menguasai semula bandar-bandar yang diceroboh Armenia di Baku, 10 Disember lalu.

Müsahibə zamanı Azərbaycan səfiri 1980-ci illərin sonundan etibarən Ermənistan tərəfindən ölkəmizə qarşı ərazi iddiaları, bu iddiaların sonradan silahlı zorakılığa çevrilərək Dağlıq Qarabağ və ətraf rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması ilə nəticələndiyini, Azərbaycan xalqının böyük müharibə məşəqqətləri ilə üzləşdiyini, o cümlədən Xocalı soyqırımı kimi ağır sınağa məruz qaldığını qeyd edib. Buna baxmayaraq, xalqımızın haqlı mübarizəsinin Azərbaycan Prezidentinin rəhbərliyi altında qələbə ilə yekunlaşdığını vurğulayan diplomat deyib: “Hələ müharibənin ilk günlərindən etibarən, - haşiyə çıxaraq qeyd edim ki, biz azərbaycanlılar buna Vətən müharibəsi deyirik, - Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə aydın şəkildə bildirmişdi ki, Ermənistan hər hansı şərt irəli sürmədən işğal etdiyi ərazilərimizdən çıxdığı təqdirdə, müharibə dayanacaq. Rusiya Federasiyasının təşəbbüsü ilə 9-10 noyabr 2020-ci il tarixində Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanatla atəşkəs əldə olundu. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan hökuməti tərəfindən mülki və döyüş nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti üçün yollar minalardan təmizlənir, bərpa işləri aparılır. Biz sülhün, yaxşı qonşuluğun və regional əməkdaşlığın qətiyyətli müdafiəçisiyik. Azərbaycan Prezidentinin 11 yanvar tarixində Moskvada keçirilmiş görüş zamanı ifadə etdiyi fikirlərdən birini sitat gətirmək istəyirəm. Azərbaycan Prezidenti vurğulamışdır ki, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik”.

Həmçinin səfir Q.Allahverdiyev 44 günlük Vətən müharibəsi zamanı Malayziyanın ilk münasibət bildirən ölkələrdən biri olduğuna diqqət çəkərək, Malayziya hökumətinin ümumilikdə münaqişə boyunca nümayiş etdirdiyi ədalətli mövqeyin Azərbaycan tərəfindən təqdirlə qarşılandığını vurğulayıb. Səfir malayziyalı investorları işğaldan azad olunmuş ərazilərimizdə həyata keçiriləcək geniş bərpa və inkişaf layihələrinə qoşulmağa dəvət edib.

Qeyd edək ki, 1939-cu ildən nəşr olunan “Utusan Malaysia” Malayziyanın ilk malaydilli qəzeti olmaqla yanaşı, ən yüksək tirajla gündəlik dərc olunur.

**“Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir”. Bu fikirləri Prezident İlham Əliyev dekabrın 29-da dünya azərbaycanlılarını təbrik edərək bildirmişdir. Bəli, artıq yeni - 2021-ci ilə böyük qələbələrlə, zəfərlərlə qədəm qoymuşuq.**

# Həmrəylikdən - Dəmir Yumruğa...

Hər ili yola salanda dönüm arxaya baxanda Qarabağ həsrəti, nisgili heç nə ilə əvəz edilmirdi. Ancaq bu həsrətə, bu nisgilə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev “dəmir yumruğ” siyasəti ilə su səpdi. 30 ilin həsrətinə 44 gün ərzində Qarabağ Azərbaycanımıza qovuşduq. Dövlət başçımızın dediyi kimi, 2020-ci il Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratmış və ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir.



**“Mən hər bir azərbaycanlının Prezidenti olacağam!”**

30 illik həsrətə son qoyulan Qarabağ Azərbaycandır! Zəfər Qələbəsi - “Mən hər bir azərbaycanlının Prezidenti olacağam”, dediyi sözlərin bu gün sözdə yox, reallığa çevrildiyinin şahidi olduq. 30 illiyk həsrətə 44 gün ərzində son qoymasının əsas amili - XALQ-İQTİDAR-ORDU birliyinin, Ali Baş Komandanımız İlham Əliyev cənablarının son 17 illik Prezidentlik fəaliyyəti müddətində ordumuza daima diqqət və qayğısının, dəmir yumruğunun nəticəsidir. Dövlət başçımız İlham Əliyev 17 illik Prezidentlik fəaliyyətində ancaq və ancaq düşmən tapdağında olan torpaqlarımızın azad edilməsi ilə bağlı yüksək tribunalarda, verdiyi müsahibələrində qətiyyətlə çıxışları, söylədiyi hər söz, hər kəlməsi, Güclü Ordumuzun, Rəşadətli əsgərlərimizin və nəhayət, dövlət başçımızla xalqımızın bir olmağımız, 30 illik həsrətimizə son qoyulmağımız olub.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının dediyi kimi: “Azərbaycan indi o dövlət deyilki, onun maraqlarını kimsə kənara qoya bilər”. Bəli, bu gün Azərbacan dövləti nə o dövlətdir, ordusu da nə o ordu deyil. Məhz 44 gün ərzində mənfur düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu, ordusu darmadağın edildi, Azərbaycan əsgərləri onları iti qovan kimi qovdu: “Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tankları biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!”.

Hər dəfə xoş xəbərləri xalqına birbaşa çatdıran Ali Baş Komandan, Prezident İlham Əliyev cənabları hər işğaldan azad olan torpaq müjdəsini səsləndirəndə “Qarabağ Azərbaycandır!” deyərkən simvolik olaraq yumruğunu da qaldırdı. Bunun da məntiqli mənası odur ki, həmrəy olub bir yumruq kimi birləşib Qarabağı düşməndən azad etdik. Bu birliyin köməyinə həmrəylik gəldi. “Dəmir yumruq” həmrəylik gücümüzün simvoluna çevrildi. Həmrəylikdən gələn 30 illik haqq yolu dəmir yumruğa çevrilib düşmənin saxtalaşdırdığı illərin yalanını üzə çıxardı. Ədalətimizi həmrəylik gücü ilə bərpa etdi, öz qələbəmizlə, yekdil birliyimizlə... Həmişə birlikdə olaq! Qarabağ Azərbaycandır!

***MEYDANƏLİ YOLÇUYEV,***
***YAP Daşkəsən rayon təşkilatının sədri***

# Almaniyalı alim Ermənistan cəmiyyətinə qisas barədə fikirlərdən əl çəkməyi məsləhət görür

***Almaniyanın onlayn nəşrlərinin birində Potsdam Universitetinin İqtisadi nəzəriyyə kafedrasının professoru doktor Vilfrid Furmanın “Qafqazda sülh və əməkdaşlıq?” sərlövhəli məqaləsi yerləşdirilib. AZƏRTAC xəbər verir ki, həmin məqalənin müəllifinin fikrincə, sonuncu müharibə nəticəsində ATƏT-in Minsk qrupu öz əhəmiyyətini itirib və yeni format, yeni reallıq yaranıb, bu formatda Rusiyanın və Türkiyənin iştirakı labüddür.***

Müharibədən sonra yaranmış vəziyyəti Cənubi Qafqazda “əbədi sülh”ə nail olmaq üçün tarixi şans adlandırmaq olar. Bu müharibə, faktiki olaraq, sərhədlərin beynəlxalq hüquqda “saat sıfırdakı”, yəni SSRİ-nin mövcudluğunun son illərindəki vəziyyətini bərpa edib. Çoxları bu müharibənin yekunlarını bir növ qəti nizamlama hesab edir, indi onu siyasi və institusional baxımdan hərtərəfli razılaşdırmaq lazımdır.

Professor Furman yazır ki, müharibənin qarşısını almayan və yəqin ki, bunu istəməyən Ermənistanın baş naziri Nikol Paşinyan özü-özünü çıxılmaz vəziyyətə salıb. Halbuki, əgər o, öz ölkəsi tərəfindən beynəlxalq hüququ pozmaqla işğal edilmiş Azərbaycan ərazilərinin qeyd-şərtsiz qaytarılmasını sentyabrın 27-də elan etsəydi, müharibənin qarşısı dərhal alına bilərdi. Sonradan, ilk atəşlərdən sonra da Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevin təklifini qəbul edərək, erməni qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılması qrafikini elan etsəydi, elə həmin anda atəş dayandırılardı. Amma Paşinyan bunu etmək əvəzinə beynəlxalq hüququ pozaraq və Azərbaycana müharibə elan edilmədən Azərbaycan şəhərlərini Ermənistan ərazisindən bombalamağa başladı, nəticədə insanlar həlak oldular və yaralandılar.

Müəllifin fikrincə, erməni tərəfi bunu qəsdən, Azərbaycanı bilavasitə Ermənistana atəş açmağa təhrik etmək və beləliklə, üçüncü qüvvələrin müharibəyə cəlb edilməsi üçün bəhanə tapmaq məqsədilə etmişdi. Görünür, Paşinyan özü də Ermənistan ordusunun üstünlüyü barədə öz həmvətənləri tərəfindən yaradılmış mifə uzun müddət inanır və bu millətçi illüziyalar aləmində yaşayırdı.



Ermənistan müharibədə, ilk növbədə, iki səbəbdən uduzdu: birincisi, reallıqla əlaqəni itirdiyinə görə, ikincisi, Azərbaycan Ordusunda mövcud olan ümumi motivasiya və Müzəffər Ali Baş Komandandan başlamış sıravi əsgərlərə qədər çox ciddi hərbi intizam səbəbindən. Azərbaycan 27 il, xüsusən Dağlıq Qarabağda onun xalqına qarşı törədilmiş soyqırımından sonra ümid edirdi ki, dünya birliyi beynəlxalq hüququn bərpa olunmasına kömək edəcək. Eyni zamanda, o, vaxtı hədər yerə itirmir, öz silahlı qüvvələrini yaradırdı.

Erməni siyasətçilər isə atəşkəs barədə qərarı çox gec qəbul etdilər, müəllifin fikrincə, vəziyyət erməni ordusunun tamam darmadağın edilməsi həddinə çatmışdı. O vaxt Ermənistan ordusunun maddi bazasının təqribən 80 faizi artıq məhv edilmişdi və bölmələrin çoxunun zəruri şəxsi heyəti yox idi. Erməni ordusunun Dağlıq Qarabağdakı və Ermənistandakı komandirləri kapitulyasiyadan xeyli əvvəl həyəcan təbili çalır, siyasi qərarlar qəbul olunmasını tələb edirdilər, amma erməni siyasətçilər (onların əksəriyyəti) özlərini çıxılmaz vəziyyətə salmaqda davam etdilər və fantaziyanı reallığa çevirə bilmədilər.

Furman maraqlı bir analogiya aparır: müharibə Ermənistanın işğal etdiyi, əhalisinin əksəriyyəti azərbaycanlılar olan şəhər və rayonların çoxundan (məsələn, Şuşadan) “yaxa qurtarmasına” kömək etdi. Bu yaşayış məntəqələri uzun illər boyu “Ermənistan” adlı dirijablı ağır bir yük kimi geri çəkirdi, nəhayət o, yerə çırpıldı.

Müəllif qeyd edir ki, Ermənistanda qisasa çağırışlar səslənir və bu şüarları səsləndirənlərin başçıları ruhanilərdir.

Aydın məsələdir ki, bütün dünya erməniləri Vətənə repatriasiya etməyəcəklər. Əvvələn, Ermənistanda və erməni diasporunun yaşadığı ölkələrdə iqtisadi potensial arasında fərq çox böyükdür. İkincisi, diasporun tarixi vətən barədə romantik təsəvvürləri respublikada mövcud olan reallıqdan çox güclü şəkildə fərqlənir. Qafqazda sülh prosesinin əsas problemi bundan ibarətdir. Ermənistanda yaşayan, məğlubiyyətin nə demək olduğunu görmüş insanlar bir cür, öz tarixi vətənlərini, onun möhtəşəmliyini tərifləməyə meyilli olan, dövlət büdcəsinin maliyyələşdirilməsi və investisiyalar üçün oraya pul göndərən, amma bu ölkənin nə dərəcədə korrupsiyaya qurşandığını bilməyən diaspor erməniləri isə tamam fərqli şəkildə düşünür və arzu edirlər. Professorun fikrincə, Cənubi Qafqazda sülh prosesi üçün ən böyük təhlükə məhz Ermənistanın ondan qələbələr tələb edən diaspordan asılı olmasıdır.

Ermənistan Respublikası beynəlxalq hüquqda müəyyən edilmiş sərhədləri tanımalı və Ermənistanın qədimliyi, böyüklüyü barədə siyasət yudurmamalıdır. Bəli, beynəlxalq hüquqda təyini-müqəddərat hüququ anlayışı mövcuddur, lakin dövlətin bu və ya digər regionunda etnik çoxluğun ayrılması hüququ yoxdur. Buna görə də qədim erməni məskənləri, erməni çarlıqları və ilaxır barədə biliklər tarixçilər üçün maraqlı və əhəmiyyətli ola bilər, lakin mövcud sərhədlərin dəyişdirilməsi, xüsusən silah gücünə dəyişdirilməsi cəhdləri üçün bu biliklər əsla yaramır. Ərazi bütövlüyü və təcavüzün qadağan edilməsi prinsipi də buna mane olur.

Ona görə də Ermənistanın indiki hökuməti, əlbəttə, əgər o, sülhə can atırsa, ekspansionist əhval-ruhiyyəli partiyaları və kilsəni inandırmalıdır ki, qisas almaq niyyətinin perspektivi yoxdur. Professor sonda bu nəticəyə gəlir ki, Ermənistan cəmiyyətində siyasi konsensus olmasa, Qafqazda möhkəm sülhün bərqərar olması praktiki baxımdan qeyri-mümkündür.



# YAP Tovuz rayon təşkilatının Şura iclası keçirilib

Yeni Azərbaycan Partiyası Tovuz rayon təşkilatı Şurasının iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, iclasda İdarə Heyətinin 2020-ci ilə dair illik hesabatı, rayon təşkilatı Gənclər Birliyinin və Qadınlar Şurasının fəaliyyəti haqqında hesabat, eləcə də 2021-ci il üçün fəaliyyət planı müzakirə olunub.

Şura iclasında ilin ən önəmli hadisəsi kimi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qalibiyyətlə başa çatan Vətən müharibəsindəki uğurlarımızdan,bu dövrdə rayon təşkilatı tərəfindən həyata keçirilən tədbirlərdən ətraflı bəhs olunub. Qeyd edilib ki, ötən ilin iyul ayında Ermənistan Tovuz istiqamətində təxribat törədib. Amma burada düşmənə layiqli cavab verilib,hadisələr zamanı rayon əhalisi böyük həmrəylik və vətəndaş məsuliyyəti nümayiş etdirib. Vətən müharibəsində də iştirak edən tovuzlular şərəfli döyüş yolu keçiblər. Onlardan iki nəfəri Prezidentin Sərəncamı ilə “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülüb.

İclasda 2020-ci il fevral ayının 9-da Milli Məclisə seçkilərin keçirilməsində, habelə koronavirus pandemiyasına qarşı mübarizənin aparılmasında YAP rayon təşkilatının könüllülərinin fəaliyyəti barədə də məlumat verilib. Bildirilib ki, 2020-ci ildə təşkilatın könüllüləri pandemiya ilə mübarizə çərçivəsində aztəminatlı ailələrə Heydər Əliyev Fondunun, Yeni Azərbaycan Partiyasının, eləcə də, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə ayrılmış yardımların çatdırılmasını təmin edib. Şura iclasında həmçinin rayon təşkilatının 2020-ci ilə dair gəlirləri və xərcləri barədə ətraflı hesabat verilib, cari il üçün fəaliyyət planı qəbul olunub.

***Ceyhun Rasimoğlu***

# Fevral ayının pensiyası artımla birlikdə veriləcək

Hesab edirəm ki, hər il olduğu kimi, bu il də bəlli faiz müəyyən edildikdən sonra fevral ayı ərzində pensiyaçıların pensiyaları indeksləşdiriləcək. Fevralın ödənişi aparılan zaman pensiyaçılar fevral ayının pensiyasını həm də yanvar ayı üzrə hesablanmış artımla birlikdə alacaqlar. SİA-nın məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat siyasəti şöbəsinin müdiri Babək Hüseynov deyib.

Onun sözlərinə görə, inbdeksləşdirmə yanvarın 1-dən hesablanacağı üçün artım da yanvarın 1-dən hesablanacaq. O, yanvar artımlarının fevral ayının pensiyası ilə birlikdə bank hesablarına köçürüləcəyini açıqlayıb: “Hər il pensiyaların sığorta hissəsi ötən ildəki orta aylıq əmək haqqının artım faizinə uyğun olaraq, indeksləşdirilir. 2020-ci ildə 2019-cu ilin yekununa əsasən, indeksləşdirmə 16,6 faiz olub. Pensiya kapitalı isə ötən ilin inflyasiya faizinə uyğun olaraq, indeksləşdirilir. Bu il də indeksasiya olunacaq, yaxın günlərdə indeksasiya qiymətləri ilə bağlı cəmiyyətə açıqlama veriləcək”.

# Ağalar Vəliyev: Qarabağda baş verən canlanma tezliklə ölkəmizin inkişafına təkan verəcək



**“Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun Vətən Müharibəsində şanlı qələbə qazanması və torpaqlarımızın ərazi bütövlüyünün bərpa olunması ilə Azərbaycan dövləti yeni iqtisadi reallıqlara qədəm qoydu.**

Bu yaxınlarda Füzuli-Şuşa yolunun təməlqoyma mərasimində çıxış edən dövlətimizin başçısı böyük quruculuq işlərinin başlanmasının anonsunu verdi və bildirdi ki, bizim dədə-baba torpağımız olan Qarabağı qısa müddətdə bərpa edəcəyik. Onun inamla söylədiyi bu fikirlərin təsdiqi olaraq demək lazımdır ki, qüdrətli və gənc dövlət kimi Dünya Birliyində özünə möhkəm tərəfdaşlar qazanmış Azərbaycan dövləti işğaldan azad edilmiş torpaqlarımızda həyatı canlandırmaq, Qarabağımızı dirçəltmək əzmindədir. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ağalar Vəliyev söyləyib.

Milli Məclisin deputatı qeyd edib ki, Vətən müharibəsində qazanılan şanlı qələbə sayəsində işğaldan azad edilən ərazilərin tezliklə bərpa edilməsi üzrə müvafiq infrastrukturların yaradılması və Qarabağ bölgəsinin ölkə iqtisadiyyatına inteqrasiya olunmasını təmin etmək üçün dövlət büdcəsindən 2,2 milyard manat ayrılması nəzərdə tutulub: “Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 4 yanvar tarixli fərmanı ilə “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması azad edilmiş ərazilərdə həyatın canlanması və böyük köçün başlanmasını dəstəkləyən vacib addımlardan biridir. Təsadüfi deyil ki, Qarabağın dirçəlişi və bu bölgənin zəngin təbii resursları ölkəmizin qeyri-neft sektorunun inkişafına möhkəm zəmin yaradacaq”.

Millət vəkili dövlətin işğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlı sosial-iqtisadi konsepsiyasının artıq hazırlandığını diqqətə çatdıraraq deyib ki, şəhərsalma və ərazilərin quruluşu ilə bağlı məsələlər konsepsiyada ön plana çıxarılıb: “Konsepsiyaya uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə qısa zaman ərzində kommunal, iqtisadi və sosial strukturların qurulması, eləcə də rayon mərkəzlərində yaşayış binalarının və evlərin tikintisi təmin ediləcəkdir. Qarabağa böyük köçü zəruri edən başlıca amil kimi əhalinin məskunlaşmasını və məşğulluğunu təmin olunması üçün həmin ərazilərdə istehsal, xidmət və ticarət sahələri yaradılacaqdır.

“İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında” yanvarın 19-da dövlət başçımızın imzaladığı fərmanın əhəmiyyətindən də söz açan deputat bildirib ki, xüsusi nümayəndəliklərin fəaliyyəti Qarabağda səmərəli və çevik idarəetmə modelinin yaradılmasını şərtləndirən mühüm amil olacaq”.

Ağalar Vəliyev qeyd edib ki, artıq yeni reallıqların formalaşmasıbölgədə yeni beynəlxalq əməkdaşlıq formatınının qurulmasını zəruri etməkdədir: “İşğaldan azad olunan ərazilərdə sosial infrastrukturun yenidən qurulması və əhalinin işlə təmin olunması üçün dövlət investisiyası ilə yanaşı, yerli və xarici investisiya da cəlb ediləcək. Böyük quruculuq işlərinə dost ölkələri təşviq eləmək siyasəti Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmlənməsinə xidmət edəcək. Artıq yol, dəmiryol və infrastruktur layihələrinin birgə həyata keçirilməsində Türkiyə şirkətlərinin də bərabər iştirak edəcəyi nəzərdə tutulub. Bölgənin energetika sisteminin yenidən qurulması sahəsində əməkdaşlıq etmək üçün İtaliya şirkətləri ilə səmərəli danışıqlar aparılır. Dünən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edilən İran İslam Respublikasının Xarici İşlər Naziri Məhəmməd Cavad Zərifölkəsinin Qarabağda həyata keçiriləcək yenidənqurma işlərində iştirak etmək arzusunu dilə gətirərək söyləyib ki, biz yaxın qonşuyuq və ərazilərinizin bərpası baxımından digər ölkələrlə müqayisədə üstünlüyə malikik”.

Milli Məclisin üzvü onu da vurğulayıb ki, böyükquruculuq işləri başa çatdıqdan sonra erməni vandallarının viran qoyduqları torpaqlar canlanacaq, Qarabağda baş verən bu canlanmanın tezliklə ölkəmizin inkişafına təkan verməsinin və həyatımıza müsbət təsir göstərməsinin şahidi olacağıq.

# Milyarderlər pandemiyadan sonra gücləndilər, bəs orta və yoxsul təbəqə?

**Covid-19 pandemiyası bir çox insanın işini itirməsinə və bir çox müəssisənin iflas etməsinə səbəb olarkən, milyarderlər ya zərər görmədilər, ya da bu müddətdə daha da gücləndilər. İngilis Oxfam xeyriyyə təşkilatı illik bərabərsizliyə dair hesabatında dünyanın ən varlı min nəfərinin pandemiya öncəsi maliyyə şərtlərinə 9 ay ərzində nail ola bildiyini, yoxsullar üçün bu müddətin 10 ilə qədər ola biləcəyini açıqlayıb.**



SİA xəbər verir ki, Oxfam-a görə, milyarderlər keçən il epidemiyanın başladığı 18 mart - 31 dekabr tarixləri arasında gəlirlərini təqribən 3,9 trilyon dollar artırmış, ilk 10 zənginin ümumi gəliri isə 540 milyard dollara çatıb. Dünyanın ən varlı insanları Elon Mask, Jeff Bezos və Fransız iş adamı Bernard Arnault eyni dövrdə “böhrandan əvvəl sərvət səviyyələrini aşaraq” təqribən 175 milyard avro qazanıblar.

### “Son 90 ilin ən böyük məşğulluq böhranı”

Oxfam-ın İcraçı Direktoru Gabriela Baçer, “Qeydiyyat aparılmasına başladığı gündən bəri bərabərsizliyin ən böyük artımının şahidi oluruq”- deyə bildirib.

Baçer “Pandemiyadan lüks içində xilas olan varlı elita varidatını artırarkən, pandemiyada ön cəbhədə olan səhiyyə işçiləri və market satıcıları kommunal xərclərini ödəməyə çalışır”- deyib.

Hesabata görə, son 90 ilin ən böyük məşğulluq böhranının dünyada yaşandığı, bu müddətdə milyonlarla insanın gəlirlərini və ya işlərini itirdiyi ifadə edilib. Oxfam Almaniyadan Tobias Hauschild-in böyük şirkətlərin və ən varlıların dövlət maliyyəsinə daha çox töhfə verməsi üçün bərabərsizliklərlə mübarizə aparmaq üçün vergi siyasətinin həyata keçirilməli olduğunu iddia edib.

### “Milyarderlərin bütün dünyada hər kəsin vaksinasiyasına çatacaq qədər sərvəti var”

Dünyadakı ən varlı 10 insanın pandemiyadan sonra sərvətlərini qat-qat artıracağını bildirən hesabatda, dünyanın ən varlı adamlarının bütün sərvətlərinin hamının vaksinasiyasına imkan verməsi üçün kifayət qədər olduğu təyin olunub.

Dünya Bankı və Beynəlxalq Valyuta Fondu (BVF) son hesabatlarında Covid-19 pandemiyası səbəbiylə dünyada gəlir bölgüsünün ədalətinin daha da pisləşəcəyi barədə xəbərdarlıq edib.

*Aysel Məmmədova*




# YAP Samux rayon təşkilatında qazilərlə görüş keçirilib

**YAP Samux rayon təşkilatında Gənclər Birliyinin təşkilatçılığı ilə II Qarabağ müharibəsində yaralanmış əsgər qazilərlə silsilə onlayn görüşlər keçirilib. SİA səbər verir ki, belə görüşlərdən biri də Samux şəhər sakini, Daxili qoşunlarda xidmət edən, II Qarabağ müharibəsi qazisi Babək Samir oğlu İsmayılovla olub.**

Görüşün keçirilməsində məqsəd Vətən müharibəsində yaralanmış qazilərimizi, onların göstərdikləri igidlik və şücaəti gənclərə tanıtmaq, onları vətənə məhəbbət ruhunda tərbiyə etməkdən ibarət olub. Görüşdə Vətən müharibəsi qazisi ilə yanaşı YAP Samux rayon təşkilatı Gənclər Birliyinin üzvləri iştirak edib. Babək İsmayılov müharibə ilə bağlı xatirələrindən, göstərdikləri igidliklərdən bəhs edərək YAP üzvlərini maraqlandıran sualları cavablandırıb.

# “Şəhid ailələrinə dövlət qayğısı bundan sonra da uğurla davam etdiriləcək”

“Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə diqqət və qayğı ölkəmizdə yüksək səviyyədədir. Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailə üzvlərinə və müharibə iştirakçılarına Prezident İlham Əliyevin tapşırığına əsasən aidiyyəti qurumlar tərəfindən qayğı və diqqət nəinki dövlət qurumlarının, həm də cəmiyyətin böyük bir hissəsinin diqqət və qayğısını çəkən təxirəsalınmaz mühüm bir vətəndaşlıq borcuna və vəzifəsinə çevrilib. Bu isə cəmiyyətdə birliyin və qarşılıqlı etimadın yeni təzahür forması kimi bütün təbəqələrdən olan insanlar tərəfindən xoş ovqatla qarşılanır, onların dövlətimizə və qalib Prezidentimizə inam hisslərini və məhəbbətini gündən-günə artırır”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Səbinə Xasayeva deyib.



Səbinə Xasayeva bildirib ki, Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə “YAŞAT” Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir.

“Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” Prezidentin Sərəncamı da bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı olduğunun bariz nümunəsidir. Bu Sərəncam da digər sərəncamlar və fərmanlar kimi Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsində həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu Sərəncam çoxsaylı ailələrə mənzil ehtiyaclarını qısa zaman kəsiyində ödəməklə onlara böyük sevinc bəxş edəcək, bununla da şəhid ailələrinin sosial müdafiəsi daha da yaxşılaşacaq. Bu sahədə həyata keçirilən tədbirlər hər zaman olduğu kimi, ictimaiyyət tərəfindən böyük rəğbətlə və məmnunluqla qarşılanacaq.

“Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə dövlətimizin rəhbərliyi tərəfindən xüsusi diqqət və qayğı göstərilməsi bundan sonra da davam etdiriləcək”, - deyə deputat qeyd edib.

# Qarabağda sülhəməcburetmə və ya anti-terror əməliyyatları olacaqmı?



Bu dəfə "güc strukturu" formalşdıran quldur rejimin başçısı Araik Arutunyan bu ərazilərin Azərbaycanın tərkibində hətta hər hansı statusla da ola bilməyəcəyini bildirib

***Dağlıq Qarabağın Rusiya sülhməramlılarının nəzarətində olan hissəsində hələ də fəaliyyət göstərən qondarma "dqr" quldur rejimi təxribatçı əməllərini davam etdirirlər. SİA xəbər verir ki, bir müddət əvvəl "güc strukturu" formalaşdıran quldur rejimin rəhbərliyi "polis", "fövqəladə hallar" kimi saxta fəaliyyət qurumları yaratdıqlarını bəyan ediblər.***

Lakin bununla işlərini başa çatmamış hesab edən rejim indi də "artsaxın" beynəlxalq aləmdə tanınması prosesini başlatdıqlarını bildirirlər. Bu haqda yazan erməni KİV-ləri bəyanatın Azərbaycan tərəfindən axtarışa verilmiş Araik Arutunyan tərəfindən səsləndirildiyi qeyd olunur. Aşkar təxribatçılıq, eləcə də sülhə hazır olmama gerçəkliyini ortaya qoyan "dqr"in "prezidenti" bu ərazilərin Azərbaycanın tərkibində hər hansı statusla ola bilməyəcəyini də bildirib.

Digər tərəfdən, Araik Arutunyan bu bəyanatını quldur rejimin yeni "DİN"nin rəhbəri Kren Sarkisyanın təqdimatı zamanı səsləndirib. Təxribatçı quldur bildirib ki, Qarabağı inkişaf və bərpası üçün uzun və çətin yol gözləyir.

**Yəqin ki, vəziyyətin ciddiliyinin fərqinə varmayan, ya da varmaq istəməyən quldur və terrorçu rejim səlahiyyətliləri hələ də nəyəsə, haralarasa güvənirlər**

Görünür, erməni terrorçularının və quldur qalıqlarının son nəfəslərinin verilməsi zamanı çatıb və söz yox ki, belə təxribatlar davam edərsə Azərbaycan dövləti ərazi bütövlüyünə daxil olan Xankəndini və digər yerdə qalan bölgələri qısa müddət ərzində onlardan təmizləməli olacaq. Belə ki, beynəlxalq aləm tərəfindən tanınan ərazi bütövlüyümüzün tam bərpası planı qüvvədədir və Araik Arutunyanın qış yuxusuna gedərək, bənzər sayıqlamalarla çıxış etməsi ona və ətrafına çox baha - hətta 44 günlük müharibədən də betər və baha başa gələ bilər.

Xatırladaq ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev xalqa müraciət etdiyi çıxışlarının hər birində bu barədə danışıb və vurğulayıb ki, səbrimiz yenidən tükənə və 44 günlük müharibədə vurulan sarsıdıcı zərbələrdən daha güclü zərbələr düşmənin başını əzə bilər. Yəqin ki, vəziyyətin ciddiliyinin fərqinə varmayan, ya da varmaq istəməyən quldur və terrorçu rejim səlahiyyətliləri hələ də nəyəsə, haralarasa güvənirlər. Əbəs deyil ki, Azərbaycan tərəfi üçtərəfli bəyanatda erməni əhalinin Xankəndinə köçürülməsi prosedurunun pozulması faktlarına da malikdir və səbrini gözləməyə davam edir. Amma..!

**Rusiya Federasiyasının üçtərəfli bəyanatda imzası olduğuna görə, sözügedən sərsəmliklərə münasibət bildirməməsi də Azərbaycan cəmiyyətində haqlı şübhələr və suallar doğurmaqdadır**

Amma digər tərəfdən, hiddət doğuran məqamlardan biri də Ermənistanın əldə edilmiş üçtərəfli bəyanata ümumiyyətlə, yaxud tam şəkildə əməl etməməsi faktlarıdır. Bu ölkənin dövlət rəsmilərinin Xankəndinə səfərləri, quldur rejimin rəhbərliyi ilə görüşlər keçirmələri kimi halların hər biri qeydə alınır və söz yox ki, cavabı çox ağır ola bilər.

Habelə, Rusiya sülhməramlılarının baş verənləri sadəcə izləmələri, özəlliklə, Rusiya Federasiyasının üçtərəfli bəyanatda imzası olduğuna görə, sözügedən sərsəmliklərə münasibət bildirməməsi də Azərbaycan cəmiyyətində haqlı şübhələr və suallar doğurmaqdadır. Bu gün Xankəndində və s. rusların nəzarəti altında olan yerlərdə terrorçuların şəkillərinin asılması, əski parçalarının dalğalanması da bunu isbat edir. Bütün bunlar isə istər Ermənistanın, istərsə də quldur rejimin sülhə hazır olmaması gerçəkliyini birmənalı olaraq ortaya qoymaqdadır. Sülhə hazır olmama, eyni zamanda Azərbaycanın haqlı mövqeyinə imkan verir ki, növbəti sülhəməcburetmə, yaxud anti-terror əməliyyatlarına başlasın və yerdə qalan problem köklü şəkildə həll edilsin!

*Rövşən RƏSULOV*

***P.S. Azərbaycan xalqı, ölkə ictimaiyyəti birmənalı olaraq Müzəffər Ali Baş Komandanının ətrafında sıx birləşib və Onun əmrinə müntəzir olaraq dayanıb - düşmən dil uzatmağa davam edəcəksə, onun dilini kəsmək Vətən, dövlət, millət borcumuzdur!***

# Uşaq müəssisələrindən 38 uşaq ailəsinə qaytarılıb



**Dövlət uşaq müəssisələrindəki uşaqların doğma ailə mühitinə qayıdışına nail olunması istiqamətində görülən işlər nəticəsində son bir ildə 38 uşaq müəssisələrdən öz ailəsinə qaytarılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata görə, övladlığagötürmə sahəsində idarəetmənin nazirlik tərəfindən həyata keçirilməsinə başlandığı 1 noyabr 2019-cu ildən bu günə qədər isə 27 uşaq (14 oğlan və 13 qız) övladlığa verilib.**

Onlardan 5-i ögey ana - ögey ata, 17-si yaxın qohum tərəfindən, 2-si valideynlər arasında razılıq əsasında, 3 uşaq isə dövlət uşaq müəssisəsindən övladlığa götürülüb. Övladlığa götürülmüş uşaqlardan 10-u 0-3 yaş, 16-sı 4-11 yaş, 1-i isə 12-18 yaş aralığında olanlardır. Uşaqların övladlığa götürüldüyü ailədə inkişafı üçün şəraitin olması xüsusi diqqətdə saxlanır. Bu istiqamətdə ciddi nəzarət, övladlığa götürülən hər uşağın ailədəki vəziyyətinin öyrənilməsi üçün dövri monitorinqlər həyata keçirilir.

# Sergey Lavrov: "Münasibətlər ABŞ-ın "şıltaqlıqlarından" asılı olmayacaq"



Moskva ilə Tehran arasındakı münasibətlər, iki ölkə arasındakı ortaqlığı qanunsuz sanksiyalar tətbiq edərək pozmağa çalışan ABŞ-ın "şıltaqlıqlarından" asılı olmayacaq. SİA RİA Novosti Agentliyinə istinadən xəbər verir ki, bu sözləri Rusiya xarici işlər naziri Sergey Lavrov deyib.

Lavrov, İran xarici işlər naziri Məhəmməd Cavad Zərifl-lə danışıqların ardından dövlətlər arası münasibətlərə toxunaraq bu münasibətlərin inkişafından danışıb. "Münasibətlərimiz iki dövlətin, iki xalqın mənafelərindən irəli gələrək inkişaf edir və heç bir üçüncü tərəfə baxmadan planlarımızı qururuq", deyə Lavrov bəyan edib.

Rusiya xarici işlər naziri bəzi beynəlxalq oyunçuların beynəlxalq hüquq normalarına zidd olan "birtərəfli məhdudiyyətlərdən" "sui-istifadə edərək" Moskva ilə Tehran arasındakı qarşılıqlı faydalı əməkdaşlığı qeyri-qanuni yollarla məhdudlaşdırmağa çalışdıqlarını da sözlərinə əlavə edib.

# "Bu, Ermənistanın blokadadan çıxış yolu ola bilər"



Rusiya və Ermənistanı Azərbaycan üzərindən birləşdirəcək dəmir yolunun inşası, Ermənistan üçün böyük bir addım sayıla və əslində bu, yük daşımaları blokadasından çıxış yolu hesab oluna bilər. SİA RİA Novosti Agentliyinə istinadən xəbər verir ki, bu sözləri nəqliyyat məsələləri üzrə ekspert və "İnfra Layihələr" MMC-nin idarəedici tərəfdaşı Aleksey Bezborodov sözügedən agentliyə açıqlamasında deyib.

Nəşrin Rusiya və Ermənistan hökumətlərindəki mənbələrinə istinadən yazdığına görə, bu ölkələrin baş nazir müavinləri ilə Azərbaycanın Cənubi Qafqazda nəqliyyat əlaqələri qurulmasının yanvarın 27-də Moskvada müzakirə edilməsi planlaşdırılır. Qeyd olunur ki, müzakirə bir neçə mümkün layihəyə, xüsusən də Azərbaycan və Naxçıvanı, habelə Ermənistan və Rusiyanı birləşdirəcək Ermənistan ərazisindən keçən bir dəmir yolunun çəkilişinə yönələcək. Xatırladılır ki, Rusiya və Ermənistanın birbaşa dəmir yolu əlaqəsi yoxdur. Nəzərə çatdırılır ki, əgər əvvəllər Gürcüstan ərazisindən keçirilirdisə, Abxaziya ilə əlaqədar olaraq bu da mümkünsüz olub.

Dəmir yolu tikintisi Ermənistanın yük daşınmaları blokadasından çıxması üçün əlbəttə ki, böyük bir addımdır, mahiyyət etibarilə yük daımaları blokadasından çıxmaqdır", deyə Bezborodov dəmir yolu tikintisini yüksək qiymətləndirib. Bezborodov yeni yolun inşasının Rusiya Dəmir Yollarına nə verəcəyini də şərh verib. Onun fikrincə, nəzəri olaraq yolun çəkilməsi Rusiya ilə Türkiyə arasında ticarətin inkişafına səbəb olacaq.

Xatırladaq ki, Rusiya prezidenti Vladimir Putin, Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Qarabağla bağlı üçtərəfli danışıqlardan sonra liderlər bölgənin inkişafı ilə bağlı ortaq bəyanat imzalayıblar. Üç ölkə hökumətlərinin baş nazir müavinlərinin rəhbərlik edəcəyi xüsusi bir işçi qrupunun yaradılması nəzərdə tutulur. Xüsusilə, Azərbaycan, Ermənistan və Rusiya Dağlıq Qarabağın inkişafı üzrə işçi qrupu bu il martın 1-dək beynəlxalq nəqliyyat üçün yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpası və inşası üçün qrafik təqdim etməlidir.

*İnam Hacıyev*

# 110 milyon dolları qondarma "Arsaxın" başçıları yeyib?



"Qondarma "Artsaxın" guya "ərazilər və idarəetmə nazirliyi" 28 ildə bu ərazilərdə yatırdıqları investisiyalar barədə hesabat yayıb. Diqqət çəkən faktlar var. Bildirilir ki, 1992-ci ildə dünya ermənilərindən Qarabağa vəsait yığmaq üçün Hayastan fondu yaradılıb və həmin vəsait hesabına guya 7 rayonda böyük infrastrukturlar yaradılıb. Təəssüf edirlər ki, həmin tərifli infrastrukturlar düşmənə, yəni Azərbaycana qaldı". SİA xəbər verir ki, bunu açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Ekspertin sözlərinə görə, hesabatda göstərilən rəqəmlər cəm halda dünya ermənilərindən toplanaraq təxminən 110 milyon dollar vəsaitin gətirildiyini təsdiqləyir: "Göründüyü kimi, ermənilər məlum 7 rayondan söhbət edirlər və bu rayonların, əslində, nə günə qoyulduğunu müharibədən sonra hamı gördü. Bu ərazilərə 110 milyon dollar pul qoyulubsa, ermənilər nədən "it damlarındakı" kimi miskin durumda yaşayıblar?! 110 milyon dolların qoyulduğu iddia edilən rayonlarda, əslində, daş daşın üstündə qalmayıb".

A.Quliyev vurğulayıb ki, demək, qondarma "Artsaxın" "nazirinin " hesabatı yeyilən pulların izini itirmək cəhdidir: "Nazir dünya ermənilərinə mesaj verir ki, sizlərin 1992-ci ildən bəri yığdığınız pulları bu ərazilərə yatıraraq "cənnət məkan" yaratdıq, o da düşmənlərimizə qaldı. Qondarma "Artsax" rəhbərləri dünya ermənilərinin və Hayastan fondunun mənimsənilmiş 110 milyon dollar pulunun hesabatını bu şəkildə verir".

*Aysel Məmmədova*

# AXC-Müsavat cütlüyünün hakimiyyəti: Milli rəzalət dövrü

***Ötən əsrin 90-cı illərində SSRİ-nin dağılması və xalqımızın milli-azadlıq hərəkatı nəticəsində Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi. Lakin müstəqilliyimizin ilk illərində respublikaya rəhbərlik edənlərin, xüsusilə AXC-Müsavat hakimiyyəti "liderlər"inin naşılığı, səriştəsizliyi, diletantlığı nəticəsində xalqımız yenidən müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdi. 1992-ci ildə hakimiyyəti zorla, top-tüfəng gücünə zəbt edən rüsvayçı AXC-Müsavat hakimiyyətinin satqın, dönük, savadsız "rəhbərləri" Azərbaycanı qısa müddətdə parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qoydular. Ölkədə vətəndaş müharibəsi baş alıb gedirdi.***

Heç bir nəzəri biliyi, dövlətçilik təcrübəsi, idarəçilik qabiliyyəti olmayan "bəylər"in yarıtmaz idarəçiliyi ilə respublika dərin böhrana sürükləndi. Azərbaycan artıq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Respublikada xaos, anarxiya, hərc-mərclik hökm sürür, talançılıq, korrupsiya, rüşvət baş alıb gedirdi. İqtisadiyyat dağılmışdı. İnflyasiya 1000 faizdən çox idi.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev "ölüm, ya qalım" dilemması ilə qarşı-qarşıya qalan Azərbaycanın sınağa çəkildiyi o çətin anlarda öz xilaskarlıq missiyasını həyata keçirdi, çirkli siyasi oyunların məngənəsindən çıxardı, xalqı və ölkəni dərin siyasi və iqtisadi böhrandan xilas etdi. Ümummilli Lider milli dövlət qurulması, dövlətçilik ideyalarının həyata keçirilməsi və bu proseslərin dönməzliyinin təmin edilməsi üçün respublikada milli birlik və həmrəyliyə nail olmaq üçün mühüm addımlar atdı. Ulu Öndərin gərgin və titanik fəaliyyəti Azərbaycan dövlətini dağılmaq və parçalanmaq təhlükəsindən xilas etdi, nizami ordu yaradıldı, onun döyüş qabiliyyətinin yüksəldilməsi, torpaqlarımızın müdafiə olunması üçün genişmiqyaslı tədbirlər həyata keçirildi, sözün həqiqi mənasında dövlətçiliyin əsasları qoyuldu, respublikanın strateji inkişaf istiqamətləri müəyyən edildi. Respublikadakı hakimiyyətsizlik aradan götürüldü, baş qaldırmış separatçı qüvvələr, Azərbaycan dövlətçiliyinə, müstəqilliyə, ərazi bütövlüyünə qəsdlər törədən cinayətkar ünsürlər zərərsizləşdirildi, dövlət ilə xalqın birliyi, yekdilliyi təmin edildi.

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin qətiyyəti və siyasi iradəsi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası sayəsində son 17 ildə Azərbaycanda siyasi, iqtisadi, sosial və hərbi sahələrdə böyük tərəqqi əldə edilib, beynəlxalq arenada mövqeyi daha da güclənib, respublikamız regionda baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkə statusu qazanıb.

Ötən ilin sentyabr ayının sonlarından Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşmən təxribatının qarşısının alınması, ədalətin bərpa olunması üçün müqəddəs tarixi savaşa başladı. Danışıqları pozmaqla, Azərbaycana qarşı müxtəlif təxribatlar törətməklə Ermənistan özü bu tarixi müəyyənləşdirdi. İkinci Qarabağ müharibəsinin 44-cü günü, noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanat münaqişənin həlli istiqamətində son nöqtə oldu.

Prezident İlham Əliyev dəfələrlə bildirmişdi ki, məqsəd qan tökmək və ərazi qəsb etmək deyil, düşməni ədalətli sülhə məcbur etməkdir. Adətən, uğurlu döyüşlər uğurlu diplomatik danışıqlarla yekunlaşır. Azərbaycan diplomatiyasının belə danışıqlar aparmağa qadir olduğunun noyabrın 10-da bir daha şahid olduq. Cəmiyyətimiz "Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və onun maraqlarıdır" deyən Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşdi, bu inam, bu həmrəylik də Qələbəmizin əsas rəhninə çevrildi.

Beləliklə, İkinci Qarabağ müharibəsinə daxil olarkən Azərbaycanın yüksək təchizatlı ordusu, hərb elmini yaxşı mənimsəmiş, hətta ona yeniliklər gətirə bilən ali zabit korpusu, ən əsası, bu ordu ilə qələbə qazanmağı, Dağlıq Qarabağ problemini hərbi-siyasi yolla, milli maraqlarımız çərçivəsində həll etməyi qarşısına məqsəd qoymuş ali siyasi iradə var idi. Ordumuzun şanlı zəfərlərində Prezident İlham Əliyevin Ali Baş Komandan qətiyyəti ilə bərabər, əsl böyük dövlət xadiminə, strateji təfəkkürlü siyasətçiyə xas müdrik qərarları da mühüm rol oynadı.

Göründüyü kimi, bu gün radikal müxalifət düşərgəsinin antimilli təmsilçiləri, xüsusilə də AXCP sədri Əli Kərimli kimilər bilməlidirlər ki, xalqa yaşatdıqları o ağır günləri, zülmləri, talançılığı, oğurluğu, müasir tariximizin o qara səhifələrini heç kim unutmayıb. Beləlri yaxşı bilməlidirlər ki, xalqımızın və dövlətçiliyimizin ən müsibətli dövrlərindən olan 1992-1993-cü illərin məşəqqətləri tarixin yaddaşından heç vaxt silinməyəcək. Cəmiyyətdə heç bir rolu, dəqiq ideya mövqeyi, sosial bazası, ictimai dəstəyi olmayan, ötən əsrin 90-cı illərinin çayxana təfəkküründən, küçə, daş-kəsək psixologiyasından əl çəkə bilməyən, lidersizlik sindromundan əziyyət çəkən, müasir çağırışlara cavab verə bilməyən, öz köhnəlmiş, mağara təfəkkürü ilə xalq tərəfindən ikrahla qarşılanan bugünkü dağıdıcı müxalifət hələ də ötən əsrin köhnəlmiş siyasi şüur və inkarçı, pozucu mübarizə metodlardından əl çəkə, yeniləşə, milliləşə bilmir. Məhz buna görə də həmin "köhnə qvardiya"nın nümayəndələrindən olan AXCP sədri Əli Kərimli, antimilli şuranın qondarma rəhbəri Cəmil Həsənli kimilər bu gün meydanda tək qalıblar. Onların dağıdıcı fəaliyyəti, "beşinci kolon" kimi öz şəxsi ambisiyaları naminə milli maraq və mənafelərimizə zərbə vurmaları, anti-Azərbaycan dairələrlə işbirlikləri, ölkənin siyasi arenasındakı sivil, konstruktiv müxalifətdən, sağlam qüvvələrdən uzaq düşmələri, cəmiyyətdə daim süni gərginlik yaratmaq cəhdləri və digər belə neqativ hallar təbii ki, radikal müxalifətin sıralarının gündən-günə seyrəlməsinə, üzvlərinin bu qurumlardan uzaqlaşmasına gətirib çıxarıb. Şübhəsiz, bütün bunlar yeniləşməyi bacarmayan, xalqın inam və etimadını itirən, marginallaşaraq cəmiyyətdən təcrid olunan, təkamülü, inkişafı inkar edərək ölkəni aclıq, səfalət, dağıntılar gətirən qanlı inqilablara sürükləməyə çalışan, necə deyərlər, çayın öz məcrasından çıxıb dağıdıcı bir selə çevrilməsini arzulayan və mənəvi süquta uğrayan radikal müxalifətin tezliklə siyasi palitradan silinəcəyini, tarixin tozlu arxivinə atılacağını qaçılmaz edir.

***Sevinc Azadi***

# Qoar Meloyan: "Erməni diplomatiyası bu dəfə AŞPA-da süquta uğradı"

***Ermənistanın konstitusiya üzrə eksperti Qoar Meloyan erməni deputatlarının AŞPA-dakı uğursuzluqları barədə danışıb.***

SİA xəbər verir ki, bu barədə news.am saytı Meloyanın AŞPA-nın iclasında "erməni əsirləri" ilə bağlı mövzunun gündəmə salınmaması ilə bağlı feysbuk səhifəsində yazdığı fikirlərini şərh edib. Belə ki, erməni eksperti "əsir" məsələsinin yerinə Rusiya siyasətçisi Navalnının həbsi ilə bağlı fikir mübadilələrinin aparılmasını erməni diplomatiyasının tənəzzülü kimi qiymətləndirib.

"Yuxarıda göstərilənlər bir tərəfdən Avropa strukturlarının qərəzini göstərir, digər tərəfdən Ermənistan respublikasının diplomatiyasının süquta uğradığını isbatlayır - bu dəfə parlament diplomatiyasını", deyə Qoar Meloyan statusunda qeyd edib.



Onun sözlərinə görə, belə olan halda böyük bir nümayəndə heyətinin Strasburqa getməyinin mənası yox idi. SİTAT: "Ermənistanın böyük nümayəndə heyətinin vergi ödəyicilərinin hesabına Strasburqa getməsinin nə mənası var idi ki? Hansı ki, digər ölkələrin parlament nümayəndə heyətləri iclaslara qiyabi qatılır, erməni nümayəndələri isə AŞPA-nın gündəminə hətta "əsirlər" məsələsini belə daxil edə bilməyiblər".

"Ümumiyyətlə, araşdırmaq lazımdır ki, heç olmasa bu məsələni aktuallaşdırmaq cəhdi olubmu?", deyə Meloyan yazıb. Qeyd edək ki, Azərbaycan, Rusiya və Ermənistan ölkə başçılarının imzaladıqları üçtərəfli bəyanatdan sonra hərbi əsirlər hamının-hamıya prinsipi ilə dəyişdirilib. Atəşkəs əldə edildikdən sonra isə bir qrup erməni silahlıları Azərbaycan Ordusunun nəzarət etdiyi ərazilərdə təxribat-diversiya hərəkətləri törətməyə cəhdlər göstəriblər və nəticədə əsir olaraq ələ keçiriblər. Onlar barəsində Azərbaycan Respublikasının cinayət məcəlləsində müvafiq cinayət işləri açılıb və hərbi əsir hesab olunmurlar.

***Rövşən RƏSULOV***



**RƏFİQƏ**

# "Yan"ların başqa dövlətlərə qulluq edən çaqqalları, görbagörları

Bunu mən demirəm, bütün dünya dahiləri deyir. Bir ölkəyə həyasız olduğu qədər, iyrənc, 5 qramdan sonra donuz kimi çamurda eşələnən Paşinyan kimilər bütün dünyanın həsəd apardığığ Azərbaycanın o zəngin torpaqlarını vəhşi kimi, qəbirlərini goreşənlər kimi, abidələrini faşist kimi dağıdıb, sonra da "Bəyəm Şuşa ermənilərə lazım idi?" deməsi əsil donuzluqdur, çaqqallıqdır, desək də azdır. Sonra da həyasızcasını faşistxislətli, işğalçı olduğunu özü öz dili ilə deməsi bir daha "erməni" deyilən xalqa xəstə, əxlaqsız, küçə quldurи Paşinyanın başçılıq etməsi, bədbəxtçilikdir. Həmin bu bədbəxt quldur Paşinyan həyasızcasına deyir: "Deyirlər, Şuşanı satmışıq. Şuşanı kim satıb? Əgər satmışıqsa, son 30 il ərzində satmışıq. Ona görə ki, Şuşa bədbəxt, boz şəhər idi".

Ay çaqqallar, boz gündə sizsiniz. Bax, bundan böyük həyasızlıq olmaz. Bədbəxt hələ də bədbəxtçiliyin, rəzilliyin nə olduğunu anlamır, çünki murdar donuz kimi yerdə eşələnən, küçədə ağzının suyunu axıda-axıda qışqıran, ağzı qulağının dibinə çatan rəzildən ancaq belə danışmağı gözləmək olar. Bir də Paşinyan kimi murdar çaqqalların Qarabağımızın tacı olan nəinki Şuşada olmağı, hətta Şuşanın adını ağzına almağı belə cinayyətdir. Bəli, cinayətdir!. Ona görə də, təkcə Paşinyan yox, həm də erməni xalqı da bədbəxt və rəzildirlər ki, bu gün özlərini elə bir quyuya salıblar ki, ordan çıxa bilmirlər. Bu yerdə dünyanın tanınmış simalarının Paşinyan kimi erməni abırsızlığı, riyakarlığı və namərdliyi barədə aforizmlərə ditqqət yetirmək kifayətdir ki, bu "yan"lar nə xalq kimi xalq olublar, nə də dövlət kimi dövlət. Məsələn, proletariatın rəhbərlərindən olan F.Engels deyib: "Öz arvadlarını yaşamaq və qazanc xatirinə başqa xalqların kişilərinə satan ilk millət erməni milləti olmuşdur".

Gürcü yazıçısı SERQİ SACAYA: "Ermənilər şir deyil, güclü dövlətlərə qulluq göstərən çaqqallardır".

Amerika tarixçiləri CASTİN VƏ KEROLİN MAKKARTNİLƏR: "Ermənistanın müasir ərazisi ermənilərə deyil, azərbaycanlılara mənsubdur. Məhz buna görə Ermənistan ərazisində coğrafi adların böyük hissəsi azərbaycanlılara aiddir".

## Erməni tarixiçisi MOVSES XORENASİ: "Ermənilər dördayaqlı heyvanlardır"

Erməni tarixinin "atası" sayılan MOVSES XORENASİ erməniləri dördayaqlı heyvan adlandırıb. Bəli, dördayaqlı heyvanlardır, bu "yanlar". Və bu gün Paşinyan kimilərin Elə döyüş meydanında hərbi qənimət kimi texnikaların içindən çıxan başsız erməni papaqları bir daha sübut etdi ki, bu xalq həqiqətən də başlarına papaq taxmağa və başı papaqlı olmağa layiq deyillər. Onların layiq olduğu bir şey var: başqa xalqların əsarətində boynu zəncirli və qulağı sırğalı qul kimi və gündəlik ruziləri üçün yaşamaq. Çünki sərbəst qalan kimi quduz köpək kimi hər tərəfə hürüyürlər. Başqa cür də ola bilməz. Necə deyərlər: başçısı gülüm olanın başına külüm olar. Çünki dünyada ən ləyaqətsiz xalq kimi tarixə düşən xalqdır. Bu 44 gün davam edən İkinci Vətən Müharibəsində Müzəffər Azərbaycan Ordusunun apardığı haqq yolunda əl-əyağa dolaşarlarsa o zaman etdikləri əməllərinə görə cəzalarını alacaq, necə ki aldılar və alırlar. Belə olan zaman bu gücün qarşısında it kimi qaçaraq papaqlarını, şalvarlarını da qoyub qaçırlar. Elə bundan sonra da həmişə başı papaqsız, şalvarsız qalasınız! Öz çirkin niyyətləriniz öz başlarınızda çatlasın, necə ki çatlayır!. Çünki nə qədr ki, xəstə təfəkkürlü, faşistxislətli küçə "demokratı" Paşinyan həyasızlıq edirsə, sonunuz da belə olacaq.

Ali Baş Komandanımız dediyi kimi: "Heç kim məni dayandıra bilməz və dedim tələb edirəm səndən Paşinyan, şəxsən özün, sənin xarici işlər nazirin, nə bilim o biri, bu biri yox, şəxsən özün öhdəlik götürməlisən, tarix verməlisən nə vaxt rədd olursan bizim torpaqlarımızdan. Bax bu bəyanatda o öhdəlik var. Məcbur edirik onu, məcbur etdik, zorla məcbur etdik, başına vura-vura məcbur etdik, bütün bəd əməllərinə görə, o donuzları bizim məscidlərimizdə saxladığına görə. Bizim məscidlərimizdə donuz saxlayan özü donuzdur...Mən deyən oldu. Bax, bu gün mən deyən oldu!".

Bəli, hələ bundan sonrakı gününü düşün, ay quduz Paşinyan... Yarandığınız gündən lənətlənmiş xain, quduz, donuz qədər çirkabda eşələnən "yan"lar, o cümlədən Paşinyan kimilər. Fransız psixoloq Julyerin dediyi kimi: "Ermənilərdə satqınçılıq və xəyanət simptomları sistemli şəkildə davamlı olur". Və bu gün fərsiz siyasətçinin girovuna çevrilmiş erməni xalqı, doğurdan da bədbəxtdir.

Belə bir ifadə var: "Tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa!" Sevindirici haldır ki, müzəffər Azərbaycan Ordusu azğın düşmənin legitim hədəflərini uğurla susdurdu. Xəstə təfəkkürlü Paşinyan isə "Suşa darıxdırıcı, bədbəxt şəhərdir..." deyən o quldur Paşinyan kimi hürənlər ancaq lənətlənmişlər, görbagörlardır.

# Qəzetlər media məkanında mövqeyini niyə itirir?

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

## *Niyə heç kim qəzet oxumaq istəmir- günah yazanlardadır, yoxsa oxumayanlarda?*

Həmişə cəmiyyəti narahat edən məsələlərdən yazmışıq. Bu dəfə isə ənənəni pozaraq özümüzdən yazmaq istəyirik. İndi dəb düşüb, hamı deyir, qəzet oxuyan yoxdur, qəzetlər satılmır və s. Bu, faktdır, lakin bütün hallarda olduğu kimi, burada da əsas məsələ faktın özü deyil, səbəbidir. Bəs qəzetlərin oxunmasının azalmasının səbəbləri nədir? Bu yazımızda bu suala cavab axtarmağa çalışmışıq.

### İctimai etimadın itirilməsi təhlükəsi ilə üz-üzə

Getdikcə qəzet oxuma meylinin xeyli azalması və buna uyğun olaraq qəzetlərin satış həcminin düşməsi tendensiyası daha çox müşahidə olunur. Buna müxtəlif faktorlar təsir göstərir: elektron medianın, internet saytlarının artması, mütamadi olaraq qəzetləri almaq üçün çox adamın maddi imkanının çatmaması, ölkəmizdə dərc olunan qəzetlərin mövzu monotonluğundan oxucuların bezməsi, qəzetdə verilən materialların oxucuya çatanadək köhnəlməsi, bir çox jurnalistlərin cəmiyyətə yox, müxtəlif merkantil məqsədlərə xidmət etməsi və s.

Qəzetlərin material zənginliyinin olmaması bir yana, dizayn və rəng monotonluğu da oxucuya psixoloji təsir göstərir. Ölkə qəzetlərini izləyəndə adama elə gəlir ki, sanki hamısı bir adamın əlindən çıxıb. Kiçik istisnalar var, təbii ki, amma onlar olduqca azdır. Əksəriyyəti də rəngli çıxmır, təsəvvür edin, 21-ci əsrdir hələ də bir rəngli çıxır qəzetlərimiz, halbuki, yarım əsrdən çoxdur dünya qəzetləri rəngli çıxır.

Həm də oxucuların əsl mətbuata ehtiyac var, sözün əsl mənasında, müstəqil, qərəzsiz, obyektiv və həyatın bütün sahələrini, reallıqlarını özündə əks etdirən mətbuata. Oxucu qəzetdə özünü, yaşadığı problemləri, mövcud reallıqları axtarır.

Bu boşluqdan qeyri-ciddi və diletant xəbər saytları bəhrələnir, oxucu kütləsini istədiyi səmtə yönəldə bilir, aldadıcı, qərəzli, provakativ tipli məlumatları cəmiyyətə yeridə bilir. Bu isə həm milli təhlükəsizlik, həm də dövlət təhlükəsizliyi cəhətdən ciddi təhlükədir.

### "Reket jurnalist"lərin gözdən saldığı mətbuat

Azərbaycan mətbuatında ən kəskin problemlərdən biri kimi "reket mətbuat" adı verilən bölümün fəaliyyət sferasının "çiçəklənməsi" göstərilir. Məlum olduğu kimi, Azərbaycanda 5000-ə yaxın media vasitəsi mövcud olduğu halda, ortalıqda normal fəaliyyət göstərən və dövrü çap olunan maksimum 10 ciddi mətbuat vasitəsi var.

Yüzlərlə qəzet var ki, qeydiyyatdan keçirilib, ildə 1 dəfə 4 səhifə həcmində bir-iki yüz tirajla çap olunur, redaksiyası, avadanlığı belə yoxdur, amma bu qəzetin "işçilərinin" sayı "Nyu-York Tayms"ın əməkdaşlarından çoxdur. Jurnalistikadan, mətbuatdan və ictimai məsələlərdən xəbəri olmayan bəzi "moşenniklər" indi olublar baş redaktor və sağa-sola vəsiqə paylamaqla məşğuldurlar.

Adını yaza bilməyən gözəgəlimli qız uşaqlarının cibinə vəsiqə



qoyub əyalət şəhərlərinə dilənməyə göndərən "baş redaktor"ları cəzalandırmaq lazımdır. Yoxsa, "xoruz səsi eşitməmiş" adlar qoyulan "qəzetlər" mətbuatın və jurnalistlərin adını batırmaqda davam edəcəklər.

Bəzi məlumatlara görə, Azərbaycanda azı 50 min nəfər cibində jurnalist vəsiqəsi gəzdirir, halbuki həqiqi jurnalistika ilə məşğul olanların sayı uzağı 5 min nəfər olar. Nəticədə jurnalist imici artıq tamam fərqli şəkildə formalaşır və cəmiyyətdə bu rəyi dəyişmək getdikcə daha da çətinləşir.

### Mətbuatı kimlər və necə gözdən salır?

Mətbuatın problemi təkcə səviyyəsiz və qeyri-peşəkar reket qəzetlərdən ibarət deyil. Əsas problemlərdən biri də adını müstəqil qoyaraq korparativ maraqlara xidmət edən qəzetlərdir ki, bunları xalqın dərdi-səri, güzaranı qətiyyən maraqlandırmır. Bunlar böyük maarifçilərin yaratdıqları "qəzetlər yalnız həqiqəti yazır" düşüncəsini və insanlarda formalaşmış analoji ənənəvi stereotipləri darmadağın ediblər.

İndi oxucu qəzetdə yazılanlara bir o qədər də inanmır, çünki başa düşür ki, hər qəzet öz idarə olunduğu təşkilatın və ya şəxsin siyasətinə uyğun olan şeyləri yazır və öz məqsədinə çatmaq üçün ağa qara demək bir çox qəzetlər üçün problem deyil. Özünü müstəqil elan edən bəzi mətbu orqanların haralara, kimlərə tabe oluduğu da artıq heç kimə sirr deyil.

Bəzi mətbuat orqanlarının materialları bir qayda olaraq, ancaq qan, ölüm, qırğın, ittiham, təhqir və söyüş dolu başlıqlardan ibarətdir. Oxucu bu "şok" xəbərlərdən bezib. Cəmiyyət artıq bu "şokaterapiyanı" həzm edə bilmir.

Şantaj, böhtan, qarayaxma, təhqir kampaniyası geniş vüsət alıb. Oxucu isə hər şeyi görür və başa düşür ki, belə "jurnalist"lərin, "mətbu orqan"ların dərdi xalqın, dövlətin taleyi, maraq və mənafeləri deyil, özlərinin şəxsi maraqlarıdır. Belə vəziyyətdə, mediaya inamın itməsi normaldır. Başqa cür ola da bilməzdi.

### Çap mətbuatı internet mətbuata niyə uduzur?

Qəzetlərin internet portallarla rəqabətdə uduzmasının başqa səbəbləri də var. Onlayn resurslarda xəbəri daha tez çatdırmaq olur, material çox sayda foto, video və s elektron materialların müşayiəti ilə verilir, onları sosial şəbəkələrdə paylaşmaq olur, şərh yazmaq, müzakirə etmək, irad bildirmək, kiməsə dünyanın o başına göndərmək olur, istənilən vaxt əldə etmək olur və s.

Print-media, elektron mediaya informasiya operativliyində də xeyli uduzur, çünki saytlarda xəbər anında yayımlanır, qəzetlər isə bunu hələ sabah oxucuya çatdıracaqlar. Artıq hər kəs, TV, radio, internetdən bu xəbəri eşidib. Son vaxtlar qəzet kiosklarında apardığımız müşahidələr və satıcılarla söhbətlərdən aydın olur ki, qəzet jurnallların satışı getdikcə zəifləyir, üstəlik, abunələr də azalıb. Bu satış həcmi və abunələrlə heç bir redaksiya xərclərinin heç yarısını belə ödəyə bilməz.

Çap mətbuatı yalnız dövlət yardımlarının sayəsində ayaqda qalır və tam sıradan çıxmır. Dövlətin mətbuatımıza ən böyük dəstəyi də budur. Əgər qəzetlərə illik maliyyə yardımları və layihələr üçün qrantlar verilməsəydi, indi ortalıqda 2-3 qəzet qalardı, ya qalmazdı.

### Jurnalistlər ucuz işçi qüvvəsi statusundan çıxarılmalıdır

Qəzetlərin çoxu maddi problemlər ucbatından peşəkar jurnalistlərin yox, diletantların xdmətindən istifadəyə məcbur olur. Peşəkar jurnalistlər isə, acından ölməmək üçün perekvalikasiya prosesindən keçmək məcburiyyətində qalır və başqa sahələrə gedirlər. 300-500 manat maaşla ailə saxlamaq mümkün olmadığı kimi, qeyri-peşəkarların çalışdığı mətbu vasitələrin cəmiyyətdə nüfuz qazanmaları da mümkün deyil.

Azərbaycanda jurnalistlərin orta maaşı 200-300 avrodur. Qonşu ölkələrdə- Rusiya, Gürcüstan, Türkiyə və İranda eyni işi görən jurnalistlər azı 3-5 dəfə çox əməkhaqqı alırlar. Bunun müqabilində bizdə jurnlaistə gördürülən iş onlarla müqayisədə daha çoxdur. 20 nəfərlik işçinin işini 5-10 nəfərə gördürmək cəhdi işin dəyərini xeyli aşağı salır. Nəticədə kəmiyyət keyfiyyətdən üstün tutulur ki, bu da problemin əsas səbəbidir.

Təsəvvür edin ki, son 10 ildə jurnalistlərin maaşlarında artım müşahidə olunmur. Halbuki, bu 10 ildə bütün sahələrdə çalışanların maaşlarında dəfələrlə artımlar edilib, bü müddətdə bazar-dükanda qiymətlər neçə dəfə artıb. Amma jurnalist hələ də dünyanın ən bahalı şəhərlərindən biri olan Bakıda 300-500 manat maaşla ailə saxlamağa məcburdur. Bir çoxu kirayədə qalır, bunun yarısını da kirayə haqqına çıxsaq, vəziyyətin acınacaqlı olduğunu anlamaq olar.

Başqa sözlə, jurnalistləri yoxsulluq həddində yaşayan aztəminatlı kateqoriyaya aid etmək olar. Azərbaycanda aylıq minimum istehlak səbətinin dəyərinin 200 manat civarında olmasını nəzərə alsaq, ortalama 500 manat əməkhaqqı alan jurnalistin ailəsində adambaşına yaşayış minimumundan xeyli aşağı vəsait düşdüyünü aydın görmək olar. Belə bir ağır vəziyyətdə yaşayan, problemlərdən başı açılmayan insandan hansı iş keyfiyyəti, hansı peşəkarlıq, hansı iş həvəsi gözləmək olar?

### Məşhur sualı özümüzə verək- Nə etməli?

Yaxşı olardı ki, qəzetlər xəbər dərc etməkdənsə, həmin xəbərlərə şərh, hazırlasınlar, sosial araşdırmalar, analizlər, müsahibələr və xüsusi reportajlarla oxucuya ünvanlansınlar. Yəni, qəzetdə, elektron resurslarda olmayan xüsusi materiallar olmaldır.

Print-media cəmiyyətdə o vaxt nüfuz qazanacaq ki, normal maaş verilən peşəkarlardan ibarət heyətə mailk ciddi qəzet-jurnallar maddi asılılıqdan qurtaracaq, sırf oxucu auditoriyasına hesablanmış rəqabətə girişəcək. O zaman bu mətbuat vasitələrinin hansının özünü doğruldacağı məlum olacaq.

Əgər cəmiyyətdə nüfuz qazanmaq, maddi gəlir əldə etmək, müasir və yüksək şəraitli iş mühitində çalışmaq istəyiriksə, o zaman ölkədə və dünyada gedən prosesləri dolğun və düzgün təqdim etməliyik. Təhqiramiz ifadələrdən, yalançı şoulardan, böhtan və şantajdan əl çəkməliyik.

Qərbdə jurnalistləri "cəmiyyətin gözətçi köpəyi" adlandırırlar. Bu vəzifə şərəflidir. Cəmiyyətin mənafeyi, dövlətimizin maraqları hər şeydən üstün olmalıdır. Dünya şöhrətli jurnalist Pol Stenlinin medianın təyinatı haqda bir tərifi var- "Media cəmiyyətlə hadisələr arasında elə qoyulmuş güzgüdür ki, insanlar bu güzgüyə baxaraq hər şeyi olduğu kimi görür". Azərbaycana məhz belə mətbuat lazımdır.

**Elçin Bayramlı**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

27 yanvar


QARABAĞ AZƏRBAYCANDIR!

## Luis Felipe Skolari "Kruzeyro"dan gedib



Dünya futbolunun ən titullu baş məşqçilərindən, 2002-ci ildə Braziliya millisinə dünya çempionluğu qazandırmış Luis Felipe Skolari "Kruzeyro"dan gedib. Belə ki, ötən il bu vəzifəyə təyin edilmiş braziliyalının müqaviləsinə qarşılıqlı razılıq əsasında xitam verilib.

Xatırladaq ki, 72 yaşlı Skolari 2000-2001-ci il mövsümündə də bu komandaya rəhbərlik etmişdi. Daha sonra isə Braziliya millisinin sükanı arxasına keçərək karyerasının ən böyük nailiyyətini qazanmışdı.

## "Barselona"nın borcu 1,173 milyard avroya çatdı!




İspaniyanın "Barselona" futbol klubunun ümumi borcu 1,173 milyard avroya çatıb. İspaniyanın nüfuzlu idman nəşri olan "El Mundo Deportivo" nəşrinin yazdığına görə, kataloniyalıların 2020-ci il üçün kluba olan borcları çıxmaqla xalis itkisi 488 milyon avrodur. Transferlərə görə, "Barselona"nın digər klublara cəmi 322 milyon avrodan çox borcu var.

Əməkhaqları klubun xərcləri arasında ən böyük yeri tutur. Belə ki, klubun büdcəsinin 74 faizi məhz əməkhaqlarının ödənməsinə sərf olunur.

## Bakı sakinindən narkotik vasitə və odlu silah aşkarlanaraq götürülüb

Paytaxt sakinindən narkotik vasitə və odlu silah aşkarlanaraq götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Sabunçu Rayon Polis İdarəsi 15-ci polis bölməsinin əməkdaşları Zabrat qəsəbəsində yaşayan Azad Mirzəyevin evinə baxış keçiriblər. Əməliyyat tədbiri nəticəsində evdən 28 qrama yaxın heroin, 20 qramdan artıq metamfetamin, 4 qrama yaxın tiryək, "Mauzer" markalı tapança və "AK-47" markalı təlim silahı patron darağı ilə birgə aşkar olunaraq götürülüb. Faktla bağlı Sabunçu Rayon Polis İdarəsində araşdırmalar davam etdirilir.



## Bu heyvanın ovlanması qadağan olundu!

"Builki ov mövsümündə Dağıstan turunun ovlanmasına qadağa qoyulub. Bu da onun təbii populyasiyasının bərpa olunmasına gətirib çıxaracaq".



XəzərXəbər xəbər verir ki, bu fikirləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyev "Ekspert saatı"nda deyib. Onun sözlərinə görə, ovlanması icazə verilən heyvanların sayı əvvəlcədən təyin olunur.

## Pandemiya 225 milyon insanı işsiz qoydu!

***Koronavirus 2008-2009-cu il iqtisadi böhranı ilə müqayisədə məşğulluğa dörd dəfə daha ağır zərbə vurub. Bu barədə Beynəlxalq Əmək Təşkilatının (BƏT) hesabatında bildirilir. Hesabata əsasən, 2020-ci ildə pandemiya səbəbindən dünya üzrə iş vaxtının 8.8 faizi ixtisar olunub ki, bu da 225 milyon iş yerinə bərabərdir.***



Ekspertlər iş yerlərinin daha çox qapanma səbəbi ilə itirildiyini qeyd edirlər. Belə ki, 81 milyon insan məhz lokdaun şəraitində işsiz yox, fəaliyyətsiz qalıb. Nəticədə əmək qabiliyyətli dünya əhalisinin gəlirləri 8.3 faiz, yəni 3.7 trilyon ABŞ dolları azalıb ki, bu da qlobal ÜDM həcminin 4.4 faizinə bərabərdir.

Əmək bazarındakı problemlər qadınlara daha çox təsir edib. Belə ki, qadınlar arasında məşğulluq 5 faiz, kişilər arasında isə 3.9 faiz azalıb.

Yaş bölgüsünə gəlincə, pandemiya dövründə ən çox iş itirən 8.7 faiz göstərici ilə 15-24 yaş arası gənclər olub. Məşğulluğun azalması rekordu isə 20 faiz olmaqla, qida və yerləşdirmə xidmətləri sahəsində qeydə alınıb.

## Joze Mourinyo Anxel Di Mariyanı "Tottenhem"ə gətirir

PSJ-nin futbolçusu Anxel Di Mariya karyerasını "Tottenhem"də davam etdirə bilər. Bu barədə "Daily Mail" nəşri məlumat yayıb. London klubunun baş məşqçisi Joze Mourinyo 32 yaşlı yarımmüdafiəçini komandasında görmək istəyir. Argentinalı oyunçunun Paris təmsilçisi ilə müqaviləsinin müddəti isə bu yay başa çatacaq. O, paytaxt klubu ilə sözləşməsini yeniləmək fikrində deyil.



Qeyd edək ki, Di Mariya "Real"da da Mourinyonun baş məşqçiliyi altında çıxış edib. Portuqaliyalı mütəxəssis 2010-2013-cü illərdə Madrid təmsilçisində işləyib. Di Mariya isə 2010-2014-cü illərdə bu komandada oynayıb.

## 20 baş ceyran Acınohur çölünə buraxılıb

Ceyranların ən çox populyasiyası Şirvan Milli Parkında müşahidə olunur. Şirvan Milli Parkında reintroduksiya prosesi yaxşı getdiyinə və müsbət nəticələr əldə olunduğuna görə, Acınohur çölünə də ceyranların buraxılışı təşkil olunub. Bu yaxınlarda 20 baş ceyran Acınohur çölünə buraxılıb və onların ümumi sayı 260-ı keçib. Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi "Facebook" səhifəsində yayımlanan "Ekspert saatı" verilişində nazirliyin Bioloji müxtəlifliyin qorunması xidmətinin rəisi Firuddin Əliyev deyib. O bildirib ki, ceyran populyasiyasının Şirvan Milli Parkından digər milli parkların ərazilərinə keçirilməsi ilə ceyranların sayının nisbətən çoxaldılması da nəzərdə tutulur.




**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600